**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# " BÜDCƏ SİSTEMİNDƏ İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİN BƏRPASI ÜÇÜN NƏZƏRDƏ TUTULMUŞ VƏSAİTLƏRİN EFFEKTİV İDARƏ EDİLMƏSİ "

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**Mustafayev Murad Miladi oğlu**

**BAKI – 2022**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**

**__________________________ imza**

**"____" ________________ 2022-ci il**

# "BÜDCƏ SİSTEMİNDƏ İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİN BƏRPASI ÜÇÜN NƏZƏRDƏ TUTULMUŞ VƏSAİTLƏRİN EFFEKTİV İDARƏ EDİLMƏSİ"

**mövzusunda**

## MAGİSTR DİSSERTASİYASI

**İxtisasın şifri və adı:** 060403 Maliyyə

**İxtisaslaşma:** Maliyyə nəzarəti və audit

**Qrup:** 636


**Magistrant:**
**Mustafayev Murad Miladi oğlu**
**______________________ imza**

**Elmi rəhbər:**
**i.ü.f.d., dos. Məmmədova Gültəkin Qabil qızı**
**____________________imza**

**Proqram rəhbəri:**
**i.ü.f.d. Vəliyev Cəbrayıl Xəlil oğlu**
**_________________________ imza**

**Kafedra müdiri:**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**
**_____________________imza**


**BAKI – 2022**

## Elm andı

Mən, Mustafayev Murad Miladi oğlu and içirəm ki, "Büdcə sistemində işğaldan azad edilmiş ərazilərin bərpası üçün nəzərdə tutulmuş vəsaitlərin effektiv idarə edilməsi" mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

# BÜDCƏ SİSTEMİNDƏ İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİN BƏRPASI ÜÇÜN NƏZƏRDƏ TUTULMUŞ VƏSAİTLƏRİN EFFEKTİV İDARƏ EDİLMƏSİ


## XÜLASƏ

**Tədqiqatın aktuallığı: İşğaldan azad edilmiş ərazilərimizin bərpa prosesi bütün region üçün əhəmiyyətli bir məsələdir. Hər kəsə məlum olduğu kimi bərpa və yenidənqurma işləri böyük vəsait və vaxt tələb edən prosesdir. Həmin bu prosesin davam etdiyini və büdcədən vəsaitlərin ayrıldığını nəzərə alaraq, tədqiqat işinin aktual olduğunu deyə bilərik.**

**Tədqiqatın məqsədi: Tədqiqatın əsas məqsədi büdcə sistemindən işğaldan azad edilmiş ərazilərimizin bərpa və yenidənqurma işləri üçün ayrılan vəsaitlərin səmərəli və effektiv idarəolunması istiqamətlərini müəyyənləşdirməkdir.**

**İstifadə olunmuş tədqiqat metodları: Elmi iş yazılan zaman, büdcələr və işğaldan azad olunmuş ərazilərin bərpası haqqında toplanan məlumatlar ayrı-ayrılıqda analiz edilmişdir. Sintez metodu ilə əldə edilən məlumatlar birləşdirilərək, vahid məqsəd üçün istifadə edilmişdir. Son olaraq istifadə edilən məlumatların hər biri üçün ayrı nəticə çıxarılmışdır ki, bu prosesdə də dedukasiya metodundan istifadə olunmuşdur.**

**Tədqiqatın informasiya bazası: Dissertasiya yazılan zaman, bir çox dövlət qurumlarının məlumatlarından, həmçinin, Azərbaycan Respublikası Prezidentinin sərəncam və fərmanlarından istifadə edilmişdir. Bundan əlavə olaraq, internet resursları, yerli və xarici iqtisadçı alimlərin ədəbiyyatlarından, bir çox iqtisadi jurnallardan tədqiqatın hazırlanmasında geniş istifadə olunmuşdur.**

**Tədqiqatın məhdudiyyətləri: Tədqiqat mövzusu yeni olduğundan və torpaqlarımızın uzun illər işğal altında qalması səbəbilə informasiya yetərsizliyi olması, büdcədən bərpa işləri üçün vəsaitlərin ayrılması prosesinin davam etməsi kimi səbəblər əsas məhdudiyyətlərdəndir.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: İşğaldan azad olunmuş ərazilərimizin bərpa prosesi bütün region üçün əhəmiyyətlidir. Həmçinin, proses indi də davam etdiyi üçün aktualdır.**

**Nəticələrin istifadə oluna biləcəyi sahələr: Torpaqlarımızın bərpası prosesində istifadə edilən büdcə vəsaitlərinin effektiv idarəolunması prosesi çox vacib məsələ olduğundan, bu sahədə aparılan tədqiqatlar həm öz təcrübəmizdən həm də beynəlxalq təcrübədə istifadə edilə bilər.**



***Açar sözlər: Qarabağ, Qarabağ bərpa, Bərpa.***

## EFFECTİVE MANAGEMENT OF FUNDS PROVİDED İN THE BUDGET SYSTEM FOR THE RESTORATİON OF LİBERATED TERRİTORİES


### SUMMARY

**The actuality of the subject: Restoration and reconstruction work is a process that requires a lot of money and time. Given that this process continues and funds are allocated from the budget, we can say that the research is relevant.**

**Purpose and tasks of the research: The main purpose of the study is to determine the directions of effective and efficient management of funds allocated from the budget system for the restoration and reconstruction of our liberated territories.**

**Used research methods: At the time of writing, the data collected on budgets and the restoration of liberated territories were analyzed separately. The data obtained by the synthesis method were combined and used for a single purpose.**

**The information base of the research: When writing the dissertation, information from many government agencies, as well as orders and decrees of the President of the Republic of Azerbaijan were used.**

**Restrictions of research: One of the main limitations is that our lands have been under occupation for many years and the restoration work is still going on.**

**The novelty and practical results of investigation: The restoring process is important for the whole region. It is also relevant because the process is still ongoing.**

**Scientific-practical significance of results: Since the process of effective management of budget funds used in the process of rehabilitation of our lands is a very important issue, research in this area can be used both in our own experience and in international practice.**



***Keywords: Karabakh, Karabakh restoration, Restoration.***


.

# İXTİSARLAR VƏ İŞARƏLƏR

| | |
|---|---|
| **ABŞ** | Amerika Birləşmiş Ştatları |
| **ASC** | Açıq Səhmdar Cəmiyyəti |
| **ATM** | Aqrar Tədqiqatçılar Mərkəzi |
| **SES** | Su Elektrik Stansiyası |
| **ÜDM** | Ümumi Daxili Məhsul |

**MÜNDƏRİCAT**


| | | |
|---|---|---|
| | **GİRİŞ.......................................................................................** | **8** |
| **I FƏSİL.** | **BÜDCƏ VƏ BÜDCƏ SİSTEMİ HAQQINDA ÜMUMİ MƏLUMAT...........................................................................** | **12** |
| 1.1. | Büdcə haqqında ümumi məlumat və büdcənin iqtisadi rolu və əhəmiyyəti......... | 12 |
| 1.2. | Büdcə haqqında nəzəri metodoloji yanaşmalar.................................................. | 20 |
| 1.3. | Büdcə sistemi, quruluşu və əhəmiyyəti............................................................. | 28 |
| **II FƏSİL.** | **YENİ YARADILMIŞ İQTİSADİ RAYONLARIN İQTİSADİ POTENSİALININ TƏHLİLİ...................................................................** | **35** |
| 2.1. | İşğaldan azad edilmiş bölgələrdə yeni iqtisadi rayonların yaradılmasının əhəmiyyəti və gələcəkdə gətirəcəyi iqtisadi səmərənin qiymətləndirilməsi... | 35 |
| 2.2. | Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının potensialının öyrənilməsi........ | 45 |
| **III FƏSIL.** | **BÜDCƏ SİSTEMİNDƏ İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİN BƏRPASI ÜÇÜN NƏZƏRDƏ TUTULMUŞ VƏSAİTLƏRİN SƏMƏRƏLİ İDARƏ OLUNMASININ TƏKMİLLƏŞDİRİLMƏSİ YOLLARI...........................................................................** | **56** |
| 3.1. | Büdcə xərclərinin səmərəli istifadəsi metodlarının təkmilləşdirilməsi istiqamətləri........................................................................... | 56 |
| 3.2. | Qarabağın bərpası üçün nəzərdə tutulmuş büdcə vəsaitlərinin optimallaşdırılması və idarə olunması problemləri........................................... | 65 |
| | **NƏTİCƏ VƏ TƏKLİFLƏR.................................................................** | **70** |
| | **İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI .......................................** | **73** |
| | Cədvəllərin siyahısı........................................................................... | 76 |
| | Diaqramların siyahısı........................................................................... | 76 |

# GİRİŞ

**Mövzunun aktuallığı:** Torpaqlarımız işğaldan azad olunduqdan sonra qarşıda duran əsas məsələ həmin ərazilərin bərpasıdır. Həmin ərazilərə həyatın qayıtması və iqtisadiyyatın dirçəlməsi üçün bərpa və yenidənqurma işlərinin aparılması ən vacib məsələdir. Düşmən torpaqlarımızı işğal etdikdən sonra bütün işğal etdiyi ərazilərin infrasturkturunu, bitki örtüyünü dağıtmış, təbii sərvətlərini isə talan etmişdir. Təbii sərvətlər dedikdə, yalnız yeraltı ehtiyyatlar deyil, həmçinin həmin ərazilərin su hövzələri, torpaq örtüyünü də böyük ölçüdə məhv ediblər. Bundan başqa, ərazilərin böyük hissəsini də minalayıb və digər təhlükəli partlayan sursat yerləşdiriblər. Düşmənin işğal etdiyi ərazilərimizdə etdiyi bütün bu dağıdıcı və işğalcı fəaliyyət nəticəsində, həmin ərazilərdə həyat uzun müddət ərzində olmayıb. Lakin, biz torpaqlarımızı işğaldan azad etdikdən sonra dərhal həmin ərazilərə həyatın qayıtması üçün lazımı proseslərə başladıq.

İşğaldan azad edilmiş ərazilərə geri qayıtmaq üçün ilk öncə yaşayış üçün lazımi infrastrukturlar yaradılmalıdır. Bu infrastrukturlara: avtomobil və dəmir yolları, su,qaz və işıq kimi yaşamaq üçün əhəmiyyətli olan xəttlərin çəkilməsi aiddir. Lakin bütün bu proseslərə başlamaq üçün ilk öncə, işğaldan azad olunan ərazilərin mina və partlayıcı sursatlardan təmizlənməsi lazımdır. Bütün bu proseslərin icarsına artıq çoxdan başlanmışdır və bu proseslərin nəticəsində işğaldan azad olunan ərazilərə həyat yenidən qayıdacaq, həmin ərazilərin iqtisadiyyatı dirçələcəkdir.

İşğaldan azad edilmiş ərazilərin bərpası, Azərbaycan Respublikası üçün birinci dərəcəli əhəmiyyətli məsələdir. Hal-hazırda işğaldan azad olunmuş ərazilərin bərpası üçün büdcədən vəsaitlər ayrılır. Bu vəsaitlərin effektiv idarə olunması həm daha çox səmərə gətirər həm də büdcədən daha az xərc çıxar. İşğaldan azad edilmiş ərazilərin bərpası üçün büdcədən vəsaitlərin ayrılması prosesi davam etdiyi üçün dissertasiya aktual hesab olunur. Əlavə olaraq, yuxarıda da sadalanan səbəblər, bir daha dissertasiya mövzusunun əhəmiyyətini əks etdirir.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi**: İşğaldan azad edilmiş ərazilərə geri dönəbilmək və həmin ərazilərdən iqtisadi səmərə əldə edəbilmək üçün həmin əraziləri bərpa etmək lazımdır. İşğaldan azad edilmiş ərazilərin bərpasına ayrılan vəsaitlərin böyük qismi dövlət büdcəsi hesabına formalaşır. Ona görədə dövlətin büdcə sisteminin nəzəri və praktiki problemləri yaxşı dərk olunmalı və büdcədən ayrılan vəsaitlər effektiv idarə olunmalıdır. Əgər büdcədən, işğaldan azad edilmiş ərazilərin bərpası üçün ayrılan vəsaitlər səmərəli xərclənməsi və vəsaitlərin effektiv, düzgün idarə olunması təşkil edilə bilməsə ciddi problemlərlə üzləşə bilərik. Lakin, vəsaitlər effektiv idarə olunsa, həm daha az xərc həm də daha yüksək səmərəlilik əldə etmək olar.

**Tədqiqatın məqsəd və vəzifələri**: Tədqiqatın məqsədi, işğaldan azad edilmiş ərazilərin bərpası üçün dövlət büdcəsindən ayrılan vəsaitlərin effektiv və səmərəli idarə edilməsini həyata keçirməkdir. Bu məqsədlə dissertasiyada büdcə, büdcə sistemi və idarəedilməsi haqqında məlumat və həmçinin işğaldan azad edilmiş ərazilərin bərpası üçün ayrılan vəsaitlərin efektiv idarə olunması haqqında təklif və tövsiyyələr verməyə çalışmışıq.

Tədqiqatın məqsədinə uyğun olaraq, aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

-İşğaldan azad edilmiş ərazilərin bərpasında, büdcədən ayrılan vəsaitləri effektiv idarə edəbilmək üçün büdcə və büdcə sistemi haqqında lazımı məlumatlara yiyələnmək və büdcə sisteminin bu prosesdə əhəmiyyətini izah etmək;

-İşğaldan azad edilmiş ərazilərin bərpası prosesində yeni iqtisadi rayonların yaradılmasının əhəmiyyətini qiymətləndirmək;

-İşğaldan azad edilmiş ərazilərin gələcəkdə gətirəbiləcəyi iqtisadi səmərənin potensialını öyrənmək;

-Büdcə xərclərinin, işğaldan azad edilmiş ərazilərin bərpası üçün səmərəli istifadəsi metodlarını öyrənmək və təkmilləşdirilməsi metodlarını müəyyən etmək.

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqatın obyektini, işğaldan azad edilmiş ərazilərin bərpası üçün nəzərdə tutulmuş vəsaitlər təşkil edir. Tədqiqatın predmeti isə

Büdcə vəsaitlərinin işğaldan azad edilmiş ərazilərin bərpası üçün effektiv idarə edilməsidir.

**Tədqiqat metodları:** Elmi tədqiqat işinin hazırlanması zamanı müxtəlif metodlardan istifadə olunmuşdur. İlk olaraq, büdcə və büdcə sistemi, onun iqtisadi rolu və səmərəliliyi nəzəri baxımından analiz olunmuşdur. Nəzəri baxımdan analiz edilərkən, qazetlər, elmi nəşrlər və internetdəki resurslar istifadə edilmişdir.

Həmçinin, dissertasiya işinin davamında aşağıdakı proseslərdən istifadə edilmişdir:

Analiz metodu - Bu metoddan istifadə edərək, büdcə sistemi, işğaldan azad edilmiş ərazilərin bərpası və bərpası üçün ayrılmış vəsaitlər haqqında məlumatlar toplanmış və toplanan məlumatlar ətrafında araşdırmalar aparılmışdır.

Sintez metodu – Dissertasiyanın yazılması prosesində, büdcə, işğaldan azad olunmuş ərazilər, həmin ərazilərin bərpa prosesi və bu proses üçün ayrılan vəsaitlər haqqında məlumatlar cəmləşdirilmişdir.

Dedukasiya metodu – Bu metoddan istifadə edən zaman, büdcə, büdcə sistemi, işğaldan azad olunan ərazilər haqqında toplanılan məlumatlardan xüsusi nəticə əldə edilmişdir.

**Tədqiqatın informasiya bazası:** Tədqiqat işini yazarkən Azərbaycan Respublikasının bir çox rəsmi dövlət qurumlarının məlumatlarından istifadə olunmuşdur. İstifadə olunan rəsmi dövlət qurumlarının məlumatları, Dövlət Vergi Xidməti, Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi və Dövlə Statistika Komitəsindən alınmışdır. Bu məlumatlardan əlavə olaraq, Prezident İlham Əliyevin fərman və sərəmcamları, müxtəlif internet resursları və yerli iqtisadi alimlərin elmi əsərləri, kitablarından və iqtisadi jurnallardan istifadə edilmişdir.

**Tədqiqatın məhdudiyyətləri:** Tədqiqat mövzusu yeni olduğundan və torpaqlarımız uzun müddət işğal altında qaldığı üçün yeni məlumat tapmaq, tədqiqat işinin əsas məhdudiyyətlərindəndir. Əlavə olaraq, bərpa prosesi və büdcədən ayırmalar

hələ də davam etdiyi üçün tədqiqat işinə lazım olan materiallar hələ tam formalaşmamışdır.

**Tədqiqatın elmi yeniliyi:** Tədqiqat, hal-hazırda aktual olan bir mövzu əhatəsində yazılmışdır.Belə ki, işğaldan azad edilmiş ərazilərin bərpası üçün büdcədən vəsait ayrımları və həmin ərazilərin bərpa işləri hal-hazırda da davam edir. Həmçinin, hal-hazırda, ərazilərin bərpası region üçün ən əhəmiyyətli məsələlərdən biridir.

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiq sahələri:** Tədqiqat işi, hal-hazırda aktual olan bir mövzu əhatəsində yazılmışdır.Belə ki, işğaldan azad edilmiş ərazilərin bərpası üçün büdcədən vəsait ayrımları və həmin ərazilərin bərpa işləri hal-hazırda da davam edir. Həmçinin, hal-hazırda, ərazilərin bərpası dünyanın gündəmində olan ən əhəmiyyətli məsələlərdən biridir. Tədqiqat işinin nəticəsində, büdcədən ayrılan vəsaitlərin necə daha effektiv istifadə olunması haqqında ətraflı məlumatlara yer verilib. Həmçinin müxtəlif beynəlxalq təcrübə, ayrılmış büdcə vəsaitlərinin səmərəli istifadə olunması metodlarının təkmilləşdirilməsi kimi bir çox mühüm məsələyə toxunulmuşdur. Torpaqlarımızın bərpası prosesində istifadə edilən büdcə vəsaitlərinin effektiv idarəolunması prosesi çox vacib məsələ olduğundan, bu sahədə aparılan tədqiqatlar həm öz təcrübəmizdən həm də beynəlxalq təcrübədə istifadə edilə bilər.

# I FƏSİL. BÜDCƏ VƏ BÜDCƏ SİSTEMİ HAQQINDA ÜMUMİ MƏLUMAT

## 1.1. Büdcə haqqında ümumi məlumat və büdcənin iqtisadi rolu və əhəmiyyəti.

Büdcə və büdcə sisteminin işləmə prosesi, əhəmiyyətini və yaranma səbəblərini öyrənmək üçün ilk öncə büdcənin nə olduğunu və nə mənaya gəldiyini bilmək lazımdır. Əslində, büdcəyə bir çox fərqli yanaşma vardır. Bu fərqli yanaşmalar nəticəsində, büdcə üçün bir neçə fərqli tərif yaranmışdır. Lakin biz ən çox istifadə olunan, sadə tərifinə baxsaq, büdcənin – iqtisadi subyektinin gəlir və xərclərini hər maliyyə ili üçün əhatə edən illik maliyyə planı deyə bilərik. Həmçinin, büdcə, gələcək dövrə aid olacaq gəlir və xərcləri onların ətraflı və detallı təsvirini hazırlayıb, tətbiqini təmin edir. Büdcə ingilis-dili mənşəli söz olub, (Budget sözündən alınmış) pul kisəsi deməkdir. Həmçinin başqa dillərdən tərcümələrə də baxıb, ümumiləşdirsək, büdcənin hərfi tərcüməsinin, pul kisəsi və ya çanta olduğunu görərik. Büdcə üçün daha ətraflı bir tərif vermək istəsək, büdcənin dövlətin funksiyalarını yerinə yetirmək üçün ehtiyac olan maliyyə vəsaitlərinin toplanılması və istifadəsi üçün əsas vaistədir. ( Dərslik, Büdcə sistemi Bakı-2003, səhifə 19)

Cəmiyyətin iqtisadi-siyasi, sosial və s. kimi əhəmiyyətli strukturunun formalaşmasında, dövlət tənzimlənməsinin rolu mühümdür. Büdcə sistemi, maliyyə sisteminin tərkib hissəsi olub, dövlətin iqtisadi-sosial siyasətinin də əsas hissəsidir. Dövlətin əsas pul vəsaiti fondlarından olan mərkəzləşdirilmiş və qeyri-mərkəzləşdirilmiş maliyyə fondlarının istifadəsi də, elə məhz, büdcə vaistəsilə həyata keçirilir. Bütün dünya ölkələri üçün əhəmiyyətli maliyyə sənədi olan dövlət büdcəsi vaistəsilə dövlət büdcənin əsas funksiyalarının icrasını müəyyənləşdirir.

Tarix boyu iqtisadçıların maraq dairəsini büdcə gəlir və xərcləri, büdcələr, vergilər, dövlət borcları və s. kimi büdcə ilə əlaqəli məsələlər əhatə etmişdir. Dövlət gəlirləri, dövlət xərcləri və s. kimi büdcəni formalaşdıran və tənzimləyən fikirlər ilk

dəfə XVIII əsrin sonlarında formalaşmağa başlamışdır. XVIII əsrin sonlarında formalaşmağa başlayan bu təlimdə əsas diqqət vergi nəzəriyyəsinə yönəlmişdir. Buna səbəb kimi, XVIII əsr və hətta ondan da daha əvvəl zamanlardan başlayaraq dövlət büdcəsinə daxilolmaların azalması prosesi geniş yayılmış və əsas problemə çevrilməyə başlamışdı. Bütün bu prosesləri nəticəsi olaraq, yığılan vergilər dövlətin xidmətlərinin əsas haqqı kimi qəbul edilməyə başlandı.

Hər bir dövlət, öz iqtisadiyyatının inkişafını təmin etmək üçün həm iqtisadiyyatın inkişafına mane olan problemlərini həllini araşdırır həm də maliyyə siyasətini ( hansı ki, iqtisadi siyasətin tərkib hissəsidir ) tətbiq edir. Bu problemlərin həllini təmin etmək məqsədilə dövlətlər, iqtisadiyyatın inkişaf səviyyəsini yüksəltmək üçün bir sıra qanunlar qəbul edir. Bu qanunlar əsasən, inzibatı və iqtisadi qanunlar olur. Dövlətin əsas maliyyə planı, yəni, dövlət büdcəsində, bu qanunların əhəmiyyətli hissəsi yer alır.

Respublikamızda, bazar iqtisadiyyatına keçid prosesində qanunvericilikdə bir çox yeni qərar qəbul edilmişdir. Bu qərarların sayı təqribən 200 ətrafı idi və bu qərarlar ilə dövlətimiz özünəməxsus siyasətini qurmuşdur. Bu siyasət, iqtisadiyyata edilən müvafiq müdaxilələr əsasında yaranmışdır.

Dövlətlərin bir çox əhəmiyyətli funksiyaları mövcuddur və bu funksiyaları düzgün formada yerinə yetirmək üçün maliyyə vəsaitlərinə ehtiyac var. Dövlətlər, ehtiyac olan maliyyə vəsaitini büdcə vaistəsilə səfərbərliyə alıb, istifadə etməlidir. Büdcə mexanizminin köməyi ilə pul vəsaitlərinin yığımı və istifadə olunması prosesində, hüquqi və fiziki şəxslər ilə dövlət arasında bəzi maliyyə münasibətləri yaranır. Dövlətlərin maliyyə-büdcə siyasəti ilə bir çox maliyyə münasibətləri yaranır və bu münasibətlər yenə də həmin siyasət ilə tənzimlənir.

Yuxarıdakı nümunədən də başa düşüldüyü kimi büdcə siyasətinin əhəmiyyəti böyükdür. Müəyyən dövr ərzində dövlətin iqtisadi-sosial, siyasi və iqtisadi funksiyalarının yerinə yetirilməsi və cəmiyyətin idarəolunması məqsədilə müəyyən pul vəsaiti fondlarının yaradılması, istifadə edilməsi ilə əlaqəli tədbirlər sistemi – büdcə

siyasəti adlanır. Büdcə siyasətinin həyata keçirilməsi prosesində yaradılan pul fondları əsasən 2 yerə ayrılır: mərkəzləşdirilmiş və qeyri-mərkəzləşdirilmiş.

Öz üzərlərinə düşən vəzifələri, dövlət orqanları və həmçinin bələdiyyələr, büdcə vaistəsilə həyata keçirirlər. Elə məhz, bu cür misallarla da büdcənin və düzgün qurulan büdcə sisteminin əhəmiyyətini başa düşmək olar.

Ümumiyyətlə, büdcə qanun kimi hazırlanır. "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının 2 iyul 2002-ci il tarixli Qanununun 1-ci maddəsinə əsaslanaraq, büdcə haqqında belə fikir söyləmək olar; «Dövlət büdcəsi Azərbaycan Respublikasının müvafiq dövlət hakimiyyəti və özünüidarəetmə orqanları vasitəsilə dövlətə və bələdiyyələrə məxsus funksiyaların yerinə yetirilməsini təmin etmək üçün lazım olan pul vəsaitinin qanunla müəyyən olunmuş qaydada yığılması və xərclənməsi üçün əsas maliyyə sənədidir».

Yuxarıdakı fikirlərdən əldə olunan nəticəyə görə büdcə anlayışı qanunda aşağıdakı hissələri əhatə edr:

1. Pul vəsaitinin toplanması.
2. Yığılan pul vəsaitlərinin istifadə olunması formaları.
3. Dövlət funksiyalarının tətbiq olunması səbəbilə pul fondu kimi müəyyənləşdirilməsi

Dövlət toplanmış büdcə yığımları vaistəsilə ölkənin bir çox mühüm məsələsinin həlli prosesində iştirak edir. Belə ki, dövlətlər büdcə yığımlarının effektiv idarəolunması ilə iqtisadi inkişafa təkan verir, sosial-iqtisadi inkişafı sürətləndirir, dövlətin təhlükəsizliyini təmin edir və bir çox belə ciddi proseslərin təminini və inkişafını reallaşdırır. Dövlətin reallaşdırdığı bu funksiyalar büdcənin əhəmiyyətini və cəmiyyətdəki yerini bir daha təsdiqləyir. Həmçinin, büdcə vaistəsilə bir çox vacib addımlar atılır ki, elə məhz, bu addımlar büdcənin dövlət maliyyəsinin əsasını təşkil etdiyini sübut edir. Büdcə vaistəsilə təmin olunan sahələrə aşağıdakılar aiddir:

- Əhalinin maddi vəziyyətinin yaxşılaşdırılması
- İqtisadi sahələrin inkişafı istiqamətlərinin müəyyənləşdirilməsi və inkişafının

təmin edilməsi

- İnvestisyaların qoyulması

İqtisadi kateqoriya kimi maliyyə sisteminin tərkib hissəsi olan büdcə həm də maliyyə münasibətlərini özündə birləşdirir.

Dövlətin əsas maliyyə vəsaiti fondu, məhz elə onun büdcəsidir. Dövlət büdcəsi, zəruri maliyyə ehtiyacı yarandığı halda bu ehtiyacı ödəmək funskiyasına malikdir. Dövlətlər öz müəssisələri və xalqı ilə maliyyə sahəsində münasibət yaradarsa, bu münasibət büdcə münasibəti adlanacaqdır.

Büdcələrin hər birinin müəyyən dövr üçün özüməxsus siyasəti olur və görülən hər bir tədbir bu siyasətə uyğun aparılır. Büdcə üçün əhəmiyyətli olan bu siyasət büdcə tərtibi zamanı yaradılır.

Özündə həm sosial-iqtisadi həm də inzibatı-ərazi sahələrini birləşdirən dövlət büdcəsi, öz sosial-iqtisadi mahiyyətini həm də büdcə sistemində birləşdirir. Dövlət büdcəsinin istehsalın stimullaşdırılması, sosial inkişafın davamlı olması, iqtisadiyyatın inkişafı və s. sahələrdə əhəmiyyəti kifayət qədər yüksəkdir. Ölkələrin iqtisadiyyatının ən vacib tənzimləyicisi büdcə, dövlət isə makroiqtisadi tənzimlənmənin ən əsas elementlərindən biridir.

Ümumiyyətlə büdcələr bir neçə növə ayrılır:

1)Adi büdcələr

Adi büdcələrə, iqtisadiyyatın stabil inkişaf dövründə təsdiqlənən büdcələr aid edilir.

2) Fövqəladə büdcələr

Fövqəladə büdcə dedikdə, fövqəladə vəziyyət şəraitində qəbul edilən və bu cür rejimdə istifadə edilən büdcələr başa düşülür.

3) Minimal büdcələr

Minimal büdcələr, əsasən, ayrı-ayrı inzibatə ərazilər üçün qəbul edilən büdcələrdir.

4) Vahid büdcələr

Vahid büdcələrin bir digər adı isə birləşmiş büdcədir. Bu tip büdcələrdən, daha çox, mürəkkəb inzibatı ərazi quruluşuna sahib ölkələr istifadə edir.

Büdcəni tənzimləyən, onun gəlirləri və xərcləridir. Büdcə gəlirləri dedikdə, rüsumlar, yığımlar, vergilər formasında və əvəzsiz olaraq, dövlət hakimiyyət və yerli orqanların sərəncamına daxil olan pul vəsaitləri başa düşülür. Büdcə xərcləri isə dövlət və yerli idarəetmə orqanlarının öz funksiya və həmçinin vəzifələrinin reallaşdırılması üçün istifadə olunan pul vəsaitidir.

Büdcə vəsaitlərinin səmərəli və düzgün istifadəsi metodikasının öyrənilməsi və həmçinin, həmin metodikanın təhlil ediləbilməsi üçün büdcə, onun mahiyyəti, funksiyaları, prinsipləri və fəaliyyət istiqamətləri haqqında ətraflı məlumata sahib olmaq lazımdır. Büdcə və büdcə prosesinin, müvafiq prinsiplər əsasında düzgün təşkil olunması və büdcə xərclərinin səmərəli idarə edilməsi üçün yuxarıda sadalanan sahələrdə biliyə sahib olmaq mütləqdir. İqtisadi bir anlayış kimi də büdcə geniş bir anlayışa malikdir. İqtisadi kateqoriyanın əsas hissələrindən biri olan büdcənin aşağıdakı funkisiyaları mövcuddur:

- İqtisadiyyatın dövlət vasitəsilə tənzimlənməsi
- Pul vəsaitləri fondlarının yaradılması
- Pul vəsaitləri fondlarına nəzarət
- Ölkənin sosial siyasətinin təmin edilməsi üçün lazım olan maliyyə təminatının göstəriilməsi

Büdcənin birinci və əsas funksiyası kimi  göstərilən "bölüşdürücü" funksiyanın vəzifəsi, pul vəsaitlərinin yaradılması və səmərəli istifadəsidir. İqtisadiyyatı güclü inkişaf etmiş ölkələrdə ÜDM (aparılan tədqiqatlara əsasən 40 yaxud 50%-i) büdcə vasitəsilə bölüşdürülür və həmçinin, bu hadisə özündə büdcə gəlirlərinin yaradılması və səmərəli istifadə olunması proseslərini birləşdirir.

Büdcənin "nəzarət"  funksiyası, büdcə xərclərinin səmərəli idarəolunması üçün əsas funksiyalardan biridir. Büdcənin nəzarət funksiyası, büdcəyə daxil olan və büdcədən çıxan vəsaitlər üzrə dövlət nəzarətini təmin edir.

Hər bir ölkənin, büdcənin düzgün idarəolunması və büdcə xərclərinin səmərəli istifadəsi üçün hazırlanmış əsas fəaliyyət prinsipləri mövcuddur. Azərbaycan Respublikasının da büdcə sistemin əsas fəaliyyət prinsipləri mövcuddur. Azərbaycan Respublikasının büdcə sistemin əsas fəaliyyət prinsipləri aşağıdakılar aiddir:

- Büdcə sisteminin vahidliyi
- Büdcənin balanslaşdırılmasının təmin edilməsi
- Büdcənin gəlir və xərc hissələrinin, büdcə sisteminin ayrı-ayrı səviyyələrində bölüşdürülməsi
- Büdcə sisteminin hər bir fərqli səviyyəsi arasında mövcud olan müstəqillik
- Büdcənin aşkarlığı
- Büdcənin həqiqiliyi
- Büdcə vəsaitlərinin təyinatı üzrə düzgün və səmərəli istifadəsi

Büdcə xərcləri bir neçə fərqli əlamət üzrə təsnifləşdirilir. Bu əlamətlər aşağıdakılardır:

1. Funksional
2. İqtisadi
3. Təşkilati və ya inzibati

Azərbaycan Respublikasının büdcə xərclərinin funksional təsnifatı dedikdə, büdcənin funksiyaları üzrə xərclərinin qruplaşdırılması başa düşülür.

Funksional təsnifatda aşağıdakı 3 səviyyə nəzərdə tutulur:

1. Bölmə səviyyəsində funksional təsnifat
2. Köməkçi bölmə səviyyəsində funksional təsnifat
3. Paraqraf səviyyəsində funksional təsnifat

Dövlətlərin büdcə quruculuqları onların dövlət quruluşu ilə müəyyən edilib, konstitusiyaları ilə müəyyənləşdirilir. Büdcə quruculuğu digər dövlətlərdə olduğu kimi Azərbaycan Respublikasında da dövlət quruluşu ilə təsbit olunur. Bundan əlavə olaraq, ölkəmizin büdcə quruculuğu onun Konstitusiyasıynan təsbit olunur.

Dövlətimizin büdcə sistemi, onun müvafiq qanunu ilə formalaşmışdır. Həmin qanunda, büdcə ilə əlaqəli bir çox vacib məsələlər formalaşmışdır. Məsələn, büdcə, büdcə təsnifatı,büdcə ili,büdcədənkənar fondlar,icmal büdcə, büdcə kəsiri, büdcə artıqlığı və sair kimi əhəmiyyətli məsələlər formalaşmışdır. Ümumiyyətlə, büdcə və büdcə sistemini başa düşmək üçün yuxarıda qeyd olunan, büdcə sistemi haqqında qanunu bilmək vacibdir.

Azərbaycan Respublikasının büdcə sistemi, bəzi prinsiplərə söykənir, hansı ki, büdcə quruluşu zamanı bu prinsiplərdən istifadə mütləqdir. Bu prinsiplər, ölkəmizin büdcə sisteminin tərkibində olan bütün büdcələrin vahid prinsip ilə fəaliyyət göstərməsinə və onların müstəqilliyinə əsaslanır.

Büdcələrin vahidiyi onların büdcə təsnifatının, büdcə formalarının və büdcə sənədlərinin eyni formada istifadəsindən, daimi olaraq büdcə icrası ilə bağlı hesabatların hazırlanması və həmçinin icmal büdcələrin də hesabatlarının hazırlanması, qanunvericiliyə uyğun olaraq təhvil verilməsi ilə bağlıdır.

Büdcələrin xərclərinin təmin olunması üçün həmin xərcləri qarşılayacaq müvafiq gəlirləri olmalıdır. Büdcə gəlirlərini 2 yerə ayrımaq olar:

- xüsusi gəlirlər;
- tənzimləyici gəlirlər.

Büdcələrin xüsusi gəlirlərinin nə olduğuna baxsaq, konkret olaraq müxtəlif ədəbiyyatlardan əldə olunan məlumatlara əsaslanaraq belə demək olar ki - Azərbaycan Respublikasının qanunvericiliyinə aid olan gəlirlərin tam ya da qismi hissəsini həmin gəlirlərə müvafiq olan büdcələrə verilməsidir. Qeyd olunan həmin büdcələrə, Azərbaycan Respublikasının qanunvericiliyi ilə təhkim olunmuş, aşağıda göstərilənlər aiddir:

- Gəlirlər;
- Vergilər;
- Əvəzsiz ödənişlər;

- Vergisi olmayan gəlirlər.

Qeyri-vergi gəlir növü, yuxarıda da vurğuladığımız kimi büdcənin xüsusi gəlirlərinə daxildir. Dövlət və yaxud bələdiyyələrin mülklərinin satış əməliyyatından gələn gəlirləri, qeyri-vergi gəlir növünə misal kimi göstərmək mümkündür.

Xüsusi gəlirlər - Xüsusi gəlirləri, büdcə sistemində yerli büdcələrin gəlirlərinin müəyyən bir hissəsini təşkil edir. Bələdiyyələrin, öz funksiyalarının yerinə yetirə bilməsi üçün onlara büdcədən tənzimləyici gəlirlər ayrılır. Belə ki, dövlət büdcəsindən ayrılan bu gəlirlər, büdcə tənzimlənməsi prosesi üçün verilir. Bələdiyyələr, ayrılan bu gəlirlər ilə tabeçiliyində olan ərazilərin sosial-iqtisadi tərəqqisini təmin etməlidirlər

Həmçinin yerli büdcələrin tarazlığının qorunması da əsas məsələlərdən biridir. Hal-hazırda praktikada tarazlığın yaradılması üçün aşağıdakı vəsaitlərdən istifadə edilir:

- Dotasiyalar;
- Subvensiyalar;
- Subsidiyalar;
- Büdcə ssudaları;
- Qrantlar;
- Transfertlər;
- Vergilər;

Büdcənin vəsaitlərindən effektiv idarə edəbilmək üçün büdcə və büdcə sistemi haqqında ümumi məlumatları bilmək vacibdir. Hərhansısa bir dövlət və yaxud şirkət öz büdcəsindən səmərəli və düzgün istifadə etsə, gəlirlərini və xərclərini tənzimləyə bilsə, heç şübhəsiz, o inkişaf edəcəkdir. Büdcədəki vəsaitlərin düzgün bölgüsü də yetəri qədər vacib bir məsələdir. Əgər büdcədəki vəsaitlərin bölüşdürülməsi düzgün aparılmazsa, o zaman, başda sosial problemlər olmaq üzərə bir çox fərqli və ciddi problemlə üzləşmək mümkündür. Dövlətin iqtisadiyyatı da böyük ölçüdə, elə məhz dövlət büdcəsindən asılıdır. Büdcədən düzgün və effektiv ayırmalar nəticəsində, iqtisadiyyatın inkişafına

böyük dəstək vermək olar. Bütün bu sadalanan məsələlər, büdcənin iqtisadi məsələlərdə və idarəçilikdə əhəmiyyətinin nə qədər böyük olduğunu bir daha sübut edir.

### 1.2. Büdcə haqqında nəzəri-metodoloji yanaşmalar.

Büdcə maliyyə sisteminin mərkəzi halqası olduğu kimi həm də onun əsas keyfiyyət xüsusiyyətlərini və imperativ sistemini təmsil edir. Büdcə pul fondunun formalaşdırılması və xərclənməsi formasıdır. Büdcə tapşırığı və funksiyalarının maliyyə təminatı üçün nəzərdə tutulmuş vəsaitlər dövlət və yerli orqanlar tərəfindən icra olunur. “Büdcə sistemi haqqında” Azərbaycan Respublikası Qanununun 1-ci maddəsi büdcənin aşağıdakı tərifini ehtiva edir: büdcə - maliyyə üçün tələb olunan əsas vəsaitin toplanması və istifadəsi üçün sənədin müvafiq dövlət orqanları vasitəsilə həyata keçirilməsidir. Büdcə vəsaitləri Azərbaycan Respublikasının və dövlət orqanlarının vəzifə və funksiyaları, dövlət və bələdiyyə mülkiyyətindədir. Büdcənin mahiyyətini öyrənərkən iqtisadi ədəbiyyatda “büdcə” termininin istifadəsinə diqqət yetirmək lazımdır. Büdcə dövlətin iqtisadi əsasını təşkil edir. Hər hansı bir tərəddüd və ya dəyişiklik cəmiyyətin həyatında iqtisadi və sosial vəziyyətin pozulmasına gətirib çıxarır. Büdcə dövlət və cəmiyyət arasında yaranan pul münasibətlərinin bir hissəsinin yenidən bölüşdürülməsi büdcə vəsaitlərinin formalaşması və istifadəsi ilə əlaqədar; milli iqtisadiyyatın, sosial sferanın maliyyələşdirilməsini nəzərdə tutan, müdafiə və dövlət idarəçiliyinin ehtiyacları təmin edən sistemdir. Büdcə təkcə tarixi, iqtisadi kateqoriyada deyil, həm də siyasi kateqoriyada da öz yerini tutur. Büdcənin meydana çıxması və inkişafı onun yaranması ilə bağlıdır. Həmçinin dövlətin siyasi sisteminin formalaşması və inkişafı da büdcə ilə bağlıdır. Büdcə həm də cəmiyyətdə və dövlətdə münasibətlərin  sosial kateqoriyasnın da formalaşmasında mövcuddur. Dövlət büdcədən istifadə edir, büdcə dövlət üçün əsas və təsirli vasitələrdən biridir.Büdcə birbaşa sosial sahə və cəmiyyətin həyatına təsir edir. Dövlət büdcəsi dövlətin əsas planıdır, hakimiyyət orqanlarına öz səlahiyyətlərini həyata keçirməyə imkan verir və iqtisadi, sosial, siyasi və digər sahələr və sferalarda fəaliyyətləri formalaşdırır. Dövlət

büdcəsi maliyyənin real resurslarını əks etdirir, dövlətin sərəncamında olan vəsaitlər və imkanların müəyyən edilməsi ona həvalə edilmiş funksiyaları yerinə yetirmək üçün dövlət büdcəsindən istifadə edilir. Büdcə pulun xərclənməsinin konkret sahələri, milli gəlir və ümumi daxili məhsul (ÜDM) formalaşmasında da iştirak edir. Həmçinin, yenə büdcə, iqtisadiyyatın effektiv tənzimləyicisi kimi çıxış edir.

Aparılan tədqiqatlara əsasən belə bir nəticə çıxmışdır ki: vergilər ilə əlaqəli olan nəzəriyyələrin tərəqqi prosesi ingilislərin klassik siyasi iqtisadı ilə sıx əlaqəlidir. Həmin tarixlərdə, A.Smit öz əsərlərində büdcələr haqqında fikirlər söyləmişdir. Həmin fikirlərin yer aldığı “ Xalqlarınn sərvətinin səbəbləri və təbiəti haqqında tədqiqat” əsərini nümunə kimi sadalamaq mümkündür. Həmçinin bu sahədə təkcə A.Smit yox həm də bir çox fərqli iqtisadçı alimlərin əsərləri də töhfə vermişdir. Belə ki, 18-ci əsrdə yaşamış A.R.Türqo və 1819-cu ildə “Siyasi iqtisadın yeni başlanğıcı” əsərinin yazarı olan S.Sismondun da töhfələri böyükdür. (Novruzov.N, İbrahimov.E – Büdcə sistemi (dərslik), Bakı-2012, səhifə 16 )

Adam Smitin müəllifi olduğu nəzəriyyələrindən belə nəticə çıxartmaq olurdu ki, A.Smit, büdcə ilə gəlirlərin bir qisminin təkrar bölüşdürülməsini məqsədyönlü olduğunu düşünmürdü. Onun belə düşünməsinin əsas səbəblərindən biri, büdcə ilə gəlirlərin təkrar bölüşdürülmə prosesi xüsusi mülkiyyət azalmasına səbəb olması idi.

Dövlətlərin tətbiq etdiyi büdcə siyasəti tarixən bir çox iqtisadçı alimlərin fikirləri ilə formalaşmış və onların nəzriyyələrinə istinad edilmişdir. Vilyam Petti, Adam Smit, David Rikardo, Karl Marks, Paul Samuelson, Milton Friedman, K.R.Makkonnell, Con Meynard Keyns və s. kimi iqtisadçı alimlərin adını çəkmək olar ki, onlar öz nəzəriyyələri, tədqiqatları və əsərləri ilə iqtisadi inkişafa böyük təkan veriblər. Həmin sadalanan iqtisadçı alimlərin araşdırmalarında büdcə ilə bağlı bir çox fikir yer almışdır ki, bu fikirlər, əsasən büdcə, büdcə və büdcə siyasətinin formalaşması ibarətdir.

Məhşur iqtisadçı alim Smit, dövlətlərin iqtisadiyyatının tərəqqi yolunu ancaq xalqın yaşayış səviyyəsinin inkişafında, vergi və s. kimi dövlət yığımlarının azaldılmasında görürdü. O, bu fikirlərini öz “ Xalqların sərvətinin səbəbləri və təbiəti

haqqında tədqiqat ” əsərində qeyd etmişdir. Həmçinin, öz əsərlərində, “Cəmiyyəti gözə görünməyən əllər idarə edir” deyə qeyd etmiş və təklifin tələbata uyğun yaranması, yüksək rəqabət şəraitində düzgün qərarlar ilə maksimum gəlir əldə etmək haqqında fikirlərdən yazmışdır. A.Smitə görə, rəqabət çox önəmlir bir amildir. Belə ki, onun fikirlərinə görə, yüksək rəqabətli bir mühitdə həm mövcud xidmət səviyyəsi yüksələcək həm də yüksək keyfiyyətə malik məhsulların istehsalı olacaqdır. Həmçinin, dövlətlərin ədalətlilik prinsipini qoruyaraq, xalqlarının yaşayış səviyyəsini yüksəltməyə də çağırırdı.

Büdcənin vəzifə və funksiyaları dövlətin tarixi inkişafında müvafiq olaraq dəyişir və inkişaf edir. Tarixdə bir çox ölkələrin müharibələr ilə əlaqədar dövlət xərcləri kəskin artmış bununla da büdcəyə olan yanaşmalarında dəyişiklik baş vermişdir.

Tarixdə, büdcə həmişə dövlətçilik üçün əhəmiyyətli amil olmuşdur. Lakin daha sonralar xarici amillərin təsiri və müharibələrin artması büdcənin əhəmiyyətini daha da artırmışdır. Belə ki, yuxarıda sadalanan səbəblərdən ötrü büdcə xərcləri artmış, büdcə kəsirləri yaranmışdır. Bütün bu sadalanan amillər büdcə idarəetməsi və iqtisad elminin büdcə qolunun inkişafına təkan verdi. Amerikalı iqtisadçı C.B.Klarkın fikirlərinə görə belə olduğu təqdirdə, dövlət sosial-iqtisadi problemlərin həll olunması prosesində iştirak edə bilməzdi. XIX əsrdə, dövlətlərin xərclərinin və sinfi mübarizələrin artması dövlətlərin büdcə gəlir və xərclərini balanslaşdırmağa və ümumiyyətlə büdcəni daha optimal idarəetməyə məcbur edirdi. Bütün bu sadalanan səbəblər, həmin dövrdə, maliyyə və iqtisad elminin inkişafına böyük töhfə verdi. Həmin dövrlərdə dövlət büdcəsi pul fondu olaraq görülürdü.

Dövlətin davamlı  fəaliyyətini təmin edib, güclü sosial-iqtisadi siyasət formalaşdırmaq üçün dövlət büdcəsindən istifadə edilir. Dövlət büdcəsinin ölkədə baş verən iqtisadi-sosial proseslərə təsiri baxımından böyük töhfələr vermiş olan, neoklassiklərin ən məhşur nümayəndələrindən C.M.Keyns, makroiqtisadi tənzimləmə sahəsində bəzi proqramlar təklif etmişdir. Belə ki, C.M.Keyns’in təklif etdiyi proqramlarda, faiz dərəcəsinin tənzimləmə yolu ilə pul-kredit siyasətinin həyata

keçirilməsi yer almışdır. Başqa bir məhşur iqtisadçı, A.S.Piqu idi. İngilis əsilli iqtisadçı A.S.Piqu, XX əsrin ortalarında iqtisadi-sosial sistemin yaranması zamanı, İctimai rifah nəzəriyyəsi'nə əsaslanaraq, rifahın artması məqsədilə büdcə gəlirlərinin yenidən bölüşdürülməsi prosesini nəzərdən keçirirdi. Alman əsilli iqtisadçı alim R.A.Masqreyvin "İctimai maliyyə nəzəriyyəsi" əsəri, ictimai maliyyə münasibətlərinə çox böyük fayda vermişdir. R.A.Masqreyvin əsərində büdcə sektorunu 3 əsas hissəyə ayırmışdır:

1. Resursların sabitliyi
2. Resursların bölgüsü
3. Resursların yerləşdirilməsi

Tanınmış amerikan iqtisadçısı Pol Samuelson'un fikirlərinə görə bazar mexanizmləri istənilən nəticəni vermir. Belə ki, Pol Samuelson'a görə bazarın fəaliyyətində kənarlaşmalar baş verir, bazar qanunları işləmir. P.Samuelson'un fikirlərindən belə başa düşmək olar ki, dövlət büdcəsinin maliyyələşdirilməsi mexanizmləri vaistəsilə bazarın fəaliyyətində yaranan kənarlaşmalar aradan qaldırılır. XX əsrin ortalarında, büdcənin gəlir mənbələrinin genişləndirilməsi məsələləri ( əsasən də vergilərlə əlaqəli olan məsələlər ) geniş yayılmışdır. Bu məsələlər fonunda mülkiyyət hüququ nəzəriyyəsinin geniş yayılma prosesi başlamışdır. Həmin, mülkiyyət hüququ nəzəriyyəsinin banisi R.Koue olmuşdur.

Neoliberalizmin büdcənin tənzimlənməsi prosesində müəyyən rolu olmuşdur. M.Friedmenin monetarist nəzəriyyəsinə əsaslanan maliyyə siyasətində neoliberalizmə əsasən, büdcə kəsrinin azaldılması üçün müəyyən tədbirlər həyata keçirirdilər. Büdcə siyasəti ilə əlaqəli olan bu tədbirlərdə ictimai xərclərin azaldılması və həmçinin vergilərin yüksəldilməsi tədbirləri əsas götürülürdü. H.Trumen, Eyzenhauer kimi ABŞ prezidentləri bu büdcə siyasətindən istifadə edirdilər.

Büdcənin balanslaşdırılması, büdcə kəsirinin maliyyələşdirilməsi büdcənin ən vacib problemləri sırasında yer alır. Amerikalı alim C.Tobik, büdcənin əsas problemlərindən biri olan, büdcə kəsirinin maliyyələşdirilməsi probleminin tədqiq

olunması prosesində böyük töhfələr vermişdir. C.Tobikin araşdırmalarına əsasən, bir çox maliyyə məsələsi, habelə, pul dövriyyəsinin idarə olunması, iqtisadiyyata investisya qoyuluşunun idarəsi büdcə kəsirinin maliyyələşməsindən asılıdır.

Monetaristlərin fikirlərinə görə, mövcud pul kütləsi və qiymətlərin səviyyəsi arasında asılılıq vardır. Məsələn, qiymətlərin yüksəlməsi və ya inflyasiya, büdcə kəsirinin emissiya hesabına ödənilməsi nəticəsində stimullaşa bilər. Mərkəzi bank, bu cür hallara qabaqlayıcı tədbir kimi pul kütləsinin artımına ciddi nəzarət etməlidir.

Büdcə sistemi vəsait resursunun xərclənməsi nəzarətini həyata keçirir, digər tərəfdən isə bu smeta vəzifələrin maliyyələşdirilməsi məqsədi ilə vəsaitləri, dövlət və yerli orqanları tərəfindən funksiyaların yerinə yetirilməsi üçün büdcə təsnifatına uyğun olaraq formalaşdırır. Formalaşma baxımından büdcələri 3 qrupda qeyd etmək olar:

1. dövlət;
2. regional;
3. yerli.

Dövlətin maliyyə siyasətinin problemlərinin həlli üçün aşağıdakılar zəruridir:

- ümumi daxili məhsulun yenidən bölüşdürülməsi
- iqtisadiyyatın dövlət tənzimlənməsi və stimullaşdırılması
- büdcə sahəsinin maliyyə təminatı və icrası
- dövlətin sosial siyasəti
- dövlətin pul sisteminin sabitləşməsi
- aparatın saxlanması üçün sosial ehtiyacların ödənilməsi
- idarəetmə, müdafiə, təhlükəsizlik və hüquq-mühafizə orqanları və s. ödənişlərinin edilməsi
- iqtisadi və sosial fəaliyyətin tənzimlənməsi
- sahibkarlıq subyektləri və ərazilərin infrastrukturunun inkişafı
- yeni texnologiyaların, proqramların mənimsənilməsi məsələlərinin həlli
- beynəlxalq və dövlətlərarası müqavilələrin təmin edilməsi

- öhdəliklər
- təhsilə və mərkəzləşdirilmiş vəsaitlərdən istifadəyə nəzarət və s.

İstənilən iqtisadi məsələ kimi dövlət büdcəsinin də mahiyyəti, funksiyalarında özünü göstərir. İqtisadçıların fikrincə, büdcənin əsas funksiyaları aşağıdakılardır:

- yenidən bölüşdürmə (ÜDM-in yenidən bölüşdürülməsi)
- tənzimləyici funksiya (dövlət tənzimləməsi və iqtisadiyyatın stimullaşdırılması)
- stimullaşdırıcı (büdcə sahəsinin maliyyə dəstəyi və dövlətin sosial siyasətinin həyata keçirilməsi)
- sosial funksiya
- planlaşdırma funksiyası
- Nəzarət funksiyası.

Büdcə maliyyə sisteminin zəruri hissəsidir. Büdcənin formalaşması və indiki vəziyyətinə gəlməsi keçmişdən başlayaraq, uzun proseslər nəticəsində baş vermişdir.Məsələn, 1686-1689-cu illər inqilabından sonra İngiltərə parlamenti kralı müstəqil vergilər yaratmaq hüququndan məhrum etdi. Bu hadisənin özü də, büdcə tarixində mühüm hadisələrdən biridir, çünki büdcənin böyük gəlir mənbələrindən biri də, elə məhz, vergi gəlirləridir.

Təbii ki, XVII-XIX əsrlərdə, dövlət büdcələrinin əsas xərcləri hərbi-siyasi xarakterli idi, sosial xərclər çox məhdud idi, dövlətin iqtisadiyyata müdaxiləsi əhəmiyyətli dərəcədə çox idi.

İngiltərədə, XVIII əsrlərdə dövlət xərclərini azaltmaq lazım olduğu ilə bağlı fikir formalaşmışdı. XVIII əsrdə, İngiltərədə, insanlar istəyirdilər ki. özləri büdcə vəsaitlərinin hara və necə xərcləsinməsini müəyyən etsinlər. Bu prosesin davamında, İngiltərədə, birinci dərəcəli prioritet əhalinin sosial problemlərinə çarə tapmaq və dövlət təhlükəsizliyini təmin etmək idi. Elə məhz bu səbəbə görə də parlament vergiləri yüksəltmək və yuxarıda sadalanan sahələrə vəsait ayrımını artırmağı mütləq bilirdi. Həmin sahələrin xərcləri əsasən də müharibə zamanında durmadan artırılırdı. Uilyam

Petti, bu hadisələr cərəyan edən zaman, “Vergilər və yığımlar haqqında traktat” əsərini yazmışdır. O, öz əsərində dövlət və büdcəyə məxsus xərclərin artımına səbəb olan amillərdən və bu amillərin yaranma səbəblərinə toxunmuşdur. Həmin prosesə nümunə kimi aşağıdakı səbəbləri sadalamaq mümkündür:

- Vergilərin tutulması zamanı müəyyən səhvlərə yol vermək;
- Büdcə yığımlarının istifadəsi zamanı israfçılığa yol vermək;
- Vergilərin həm pul həm əmtəə formasında deyil, yalnızca pul formasında qəbul edilməsi;
- Vergi yığımında müəyyən olunmayan məqamların təsbit edilməsi;
- İsrafçılıq və s. proseslər nəticəsində pul vəsaitlərinin səviyyəsinin azalması və ya ümumiyyətlə çatışmamazlıq.
- Pulun monetar siyasətində müəyyən nizamsızlıqların aşkar edilməsi;

Fransız əsilli alim P.Lcrua - Boyenin fikirlərinə görə, vergi yığımlarının göstəriciləri o zaman riskli ola bilər ki, toplanılan vergilər milli məhsulun ümumi hissəsindən 12% və ya daha çoxdur. Əgər eyni situasiyada, göstərici 5% ətrafındadırsa, bu zaman göstəricilər normal hesab edilir. Dünyanın fiskal məsələlərə münasibəti 1800-cü illərin sonlarında əvvəlki zamanlara nisbətən çox dəyişmişdir. Belə ki, Almaniya və Fransa başda olmaq üzrə bəzi Avropa ölkələrinin büdcə xərcləri əvvəlki illərə nisbətdə xeyli artmağa başlamışdı.

XIX əsrlərdə Almaniya və Fransa kimi ölkələrin büdcədən ayrılan vəsaitlərinin səviyyələrindəki yüksəliş, müvafiq dövrün şərtlərində, bir çox probleminin həll edilməsi üçün zəruri idi. ABŞ iqtisadçılarına həmin dövrə aid fikirlərinə nəzər salsaq, onların bu kimi vəziyyətlərdə artan xərclərlə bərabər həm istehsalın həcmini artırmaq həm də iqtisadiyyatın tərəqqisini təmin etmək üçün müəyyən addımlar atmağı tövsiyyə etdiklərini görərik. Alman əsilli məhşur iqtisadçı Vagner də bu mövzuda, ABŞ iqtisadçıları ilə eyni fikri irəli sürmüşdü. A.Vagnerin irəli sürdüyü bu tezis, gələcəkdə “Vagner qanunu” kimi adlanmağa başladı. A.Vagner’ə görə dövlət xərclərinin

artmasının başda sosial ictimai olmaq üzərə, iqtisadi və s. səbəblərinin olduğunu göstərmişdir.

Büdcəni dövlətin gəlir və xərclərinin siyahısı kimi şərh etmək olar. Bundan başqa, büdcə əsas maliyyə sənədi, maliyyə planıdır. Büdcə dedikdə, bir çox iqtisadçı maliyyə planını başa düşür. Büdcə, dövlət iqtisadiyyatını idarə etmək, dövlət gəlirlərinin təxmini hesablamaq və xərcləri çıxartmaq məsələləri əsasında formalaşdı. 40-50-ci illərdə büdcə təkcə "büdcə'' olaraq deyil həm də maliyyə planı, pul fondlarının mərkəzləşdirilmiş fondu kimi şərh olunmağa başladı. 60-70-ci illərdə maliyyəyə iqtisadi elm kimi baxılmağa başlandı.

"Büdcə" iqtisadi pul məcmusu kimi xarakterizə olunur. Dövlət orqanları ilə yerli özünüidarəetmə orqanları arasında münasibətlər yenidən bölüşdürülməsi ilə bağlı hüquqi və fiziki şəxslər ümumi milli məhsul və milli sərvətin bir hissəsi hesabına dövlətin sosial-iqtisadi və müdafiə-siyasi funksiyalarının təmin edilir. Hüquqibaxımdan büdcə əsas maliyyə planıdır (gəlir və xərclərin smetası). Büdcənin başqa bir tərifi "Büdcə siyasəti haqqında" Azərbaycan Respublikasının Qanununda göstərilmişdir. Bir çox müəlliflər hesab edirlər ki, büdcə maliyyə planı fondların mərkəzləşdirilmiş fondu kimi hesab olunur, dövlət yalnız onun təşkilati-hüquqi forması haqqında, maliyyə resurslarının miqdarı haqqında anlayış verir, lakin onun mahiyyəti haqqında deyil. Bununla belə, demək olmaz ki, büdcə vəsaitlərin mərkəzləşdirilmiş fondu deyil . Buna görə də indiki vaxta qədər, büdcə planı müəyyən edilərkən bütün bu xüsusiyyətlər nəzərə alınır və büdcənin iqtisadi məzmunu hazırlanır.

Göründüyü kimi, büdcə və büdcə sisteminin tarixi çox qədim, formalaşma prosesi isə olduqca mürəkkəb və uzun çəkən bir prosesdir. Büdcə, büdcə sistemi iqtisadiyyatın əsasını təşkil etdiyindən, tarixdə büdcə və büdcə sistemi haqqında araşdırma aparmış və bu sahənin inkişafına təkan vermiş, adlarını daha əvvəl də qeyd etdiyimiz bir çox iqtisadçı alim var. Onların əsərləri, bu sahədə söylədikləri fikirləri, elmi tədqiqatları bu gündə aktiv olaraq istifadə edilir və bu ədəbiyyatlar vaistəsilə həm iqtisad elmi həm də həmin elmin əsas tərkib hissələrindən olan büdcənin inkişafı təmin edilir. Dünyanın

müxtəlif yerindən olan iqtisadçıların əsər və tədqiqatlarına nəzər yetirsək, büdcənin iqtisadi rolu və əhəmiyyəti haqqında daha yaxşı başa düşmək olar.

### 1.3. Büdcə sistemi, quruluşu və əhəmiyyəti.

Büdcə sistemini daha yaxşı anlamaq üçün büdcənin tərifini bir daha yada salaq. Ümumiləşdirsək, Azərbaycan Respublikasının büdcəsi, dövlət orqanlarının öz vəzifə, öhdəlik, funksiyalarını reallaşdırabilməsi üçün ehtiyac olan maliyyə vəsaitinin toplanılması və istifadə edəbilməsi üçün lazım olan maliyyə sənədidir. Dövlət və büdcənin yaranma prosesi bir-birləri ilə sıx əlaqəlidir. Hətta, onlardan birinin inkişafı da digərindən asılıdır. Dövlət orqanları pulu səfərbər etmək üçün paylama prosesinə müdaxilə edir və dövlət funksiyalarını yerinə yetirmək üçün tələb olunan vəsaiti ayırır. Məlum olduğu kimi büdcə, maliyyə və maliyyə sistemi ilə sıx əlaqəli bir anlayışdır. Büdcə də maliyyə kimi tərkibində pul münasibətlərini təzahür etdirir. Buna görə də maliyyə sisteminin əsas tərkib hissələrindən biri də elə məhz, büdcədir. Daha əvvəl də vurğuladığımız kimi dövlətin iki əsas pul vəsaiti fondu vardır. Bunlar mərkəzləşdirilmiş və mərkəzləşdirilməmiş fondları aid etmək mümkündür. Bu pul vəsaiti fondlarının yaradılması, istifadəsi və s. kimi proseslərin təşkili və idarəolunmasını büdcə həyata keçirir. Dövlətin yaranma prosesindən başlayaraq onunla bir olan və dövlət idarəsində mühüm yerə malik olan büdcənin rolu və əhəmiyyəti böyükdür.

Özündə bir çox fərqli lakin sərbəst olan büdcələri birləşdirən anlayış büdcə sistemidir. Büdcə sisteminin tərkibində  dövlət fondları da vardır. Bütün büdcə növlərinin məcmusunu özünü büdcə sistemində əks etdirir. Hər bir dövlət və qurumun büdcə sistemi vardır. Bu büdcə sistemləri məxsus olduğu ölkənin Konstitusiyası ilə təsbit edilir. Büdcə sisteminin yaradılması və idarəsi bəzi prinsiplər əsasında reallaşdırılır. Həmin prinsiplərə nümunə kimi aşağıdakıları sadalamaq mümkündür:

- Dövlətin iqtisadi prinsipləri
- Dövlətin siyasi prinsipləri
- Dövlətin sosial prinsipləri

Büdcə sisteminin büdcə vəsaitlərinin istifadəsindəki əhəmiyyətini dərk etmək üçün onun nə olduğunu bilmək lazımdır. Belə ki, büdcə sistemi, həmin sistemin tərkibinə aid edilən bütün büdcələrin müstəqil və vahid prinsip ilə idarəolunması və fəaliyyətinin təşkilidir. Hər bir büdcənin (ölkə büdcəsi) özünəməxsus məqsədi var. Azərbaycan Respublikasının dövlət büdcəsinin də müəyyən məqsəd və prinsipləri var. Həmin prinsiplər aşağıdakılardır:

- Dövlətin sosial-iqtisadi sahədə strateji planlarının hazırlanması
- Hazırlanan plan və proqramlar zamanı yaranan problemlərin həll olunması
- Dövlət funksiyalarının reallaşdırılması üçün lazım olan pul vəsaitinin yığılması
- Azərbaycan Respublikası Qanunvericiliyinə uyğun formada yığılan vəsaitlərin, lazımı sahələrdə istifadə edilməsinin təmini.

Azərbaycan Respublikasının büdcə sistemi 3 əsas hissədən ibarətdir. Bura yerli büdcələr, Naxçıvan Muxtar Respublikasının büdcəsi və Azərbaycan Respublikası dövlət büdcəsi aiddir.

Müstəqiliyini bərpa etdikdən sonra Azərbaycan Respublikasının iqtisadiyyatında bir neçə dəfə mühüm və yeni islahatlar aparılmışdır. Bu yeni islahatlar arasında büdcə ilə bağlı bir çox dəyişikliklər və yeniliklər mövcud idi.

Hər bir respublikada olduğu kimi, Azərbaycan Respublikasının da dövlət büdcəsinin fərqli və özünəməxsus büdcə quruluşu, sistemi və qanunları var.

Büdcələr və büdcə qanunları hər bir ölkə üzrə müxtəliflik təşkil edir və bu müxtəlifliklər bir çox fərqli amil nəticəsində meydana gəlir. Nümunə kimi Birləşmiş Krallıq, Fransa kimi Qərbi Avropa ölkələrinin büdcə sistemi üç əsas hissədən ibarət olur ( mərkəzi dövlət büdcəsi, yerli bələdiyyə və özünüidarəetmə orqanlarının büdcəsi)

Federal dövlətlərin büdcə sisteminin isə biraz daha fərqli olduğunu demək olar. Belə ki, federal dövlətlərin büdcə sistemi üç halqədən ibarətdir.Həmin üç həlqəyə mərkəzi federal büdcə, federasiyaya daxil olan subyektlərin büdcələri və yerli orqanların büdcələrini aid etmək olar. Federal dövlətlərə ABŞ, Rusiya, Almaniya kimi

ölkələri nümunə göstərmək olar ki, bu dövlətlərin də büdcələri yenə üç hissədən ibarət olur.

Yuxarıda da qeyd etdiyimiz kimi, respublikamızın büdcə sistemi 3 əsas hissədən ibarətdir. Onlardan biri olan yerli hakimiyyət orqanlarının büdcələri özündə aşağıdakı büdcələri birləşdirir:

-şəhərlərin büdcələri

-müvafiq bələdiyyələrinin büdcələri

-rayonların büdcələri

Azərbaycan Respublikasında büdcələr arasındakı münasibət respublikamızın Konstitusiyası tərəfindən tənzimlənir. Həmçinin, münasibətlərin tənzimlənməsində sadəcə Konstitusiya deyil həm də "Dövlət büdcəsi haqqında" qanundan da istifadə edilir.

Hər bir ölkənin büdcə sistemi özünəməxsus müəyyən prinsiplər əsasında formalaşır. Respublikamızın büdcə sisteminin formalaşması prosesində aşağıdakı prinsiplərdən istifadə olunub:

1.Büdcə sisteminin vahidlik prinsipi.

Büdcə sisteminin vahidliyi dedikdə, bütün büdcə həlqələrini dövlətimizin vahid sistemində birləşdirmək başa düşülür. Belə olduğu halda, büdcənin həm gəlir həm də xərcləri vahid büdcə təsnifatı əsasında təşkil edilir.

2.Fərqli səviyyələrdə olan büdcələrin müstəqillik prinsipi.

Respublikamızın Milli Məclisi tərəfindən daha əvvəl də vurğuladığımız büdcə həlqələrinin hər birinə müstəqil gəlir mənbəyi verilir. Ayrılan büdcə vəsaitlərinin istifadəsi prosesi isə müvafiq qanunlarla tənzimlənir

3. Gəlir və xərclərin mövcud büdcələrə paylaşdırılması prinsipi.

Bu prinsipdə yenə də gəlir mənbələrinin təyini və təyin olunmuş gəlirlərdən xərclərin maliyyələşdirilməsindən söhbət gedir.

4. Gəlir və xərclərin aid olduğu büdcədə tam formada əks olunması prinsipi.

Bu prinsipdə, dövlət büdcəsinə daxil olan gəlir və çıxılan xərclərin icbari və tam formada əks olunması nəzərdə tutulur.

5.Büdcənin balanslaşdırılması prinsipi.

Bu prinsipə görə hər bir büdcənin nəzərdə tutulan gəlirlərinin həcmi onun xərclərinin həcminə uyğun olmalıdır.

6.Büdcənin aşkarlığı prinsipi.

Büdcənin aşkarlığı prinsipi dedikdə, büdcənin icrası prosesində hazırlanmış hesabatların, məlumatların və s. kimi məlumatlarla birgə büdcə və büdcə idarəsi haqqında alınan qərarlar hər kəsin əldə edəbiləcəyi formada açıq olmalıdır.

7.Büdcənin reallıq prinsipi.

Büdcələrin reallıq prinsipi dedikdə, onların mövcud gəlir və xərclərinin tərtib olunmuş hesabata uyğunluğunun olması deməkdir.

8.Büdcə vəsaitlərinin məqsədli istifadə prinsipi.

Büdcəyə daxil olan bütün növ vəsaitlərin müvafiq təyinatına uyğun istifadəsi nəzərdə tutulur.

Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdikdən sonra, iqtisadiyyatın bir çox sahəsində böyük islahatlar apardı. Aparılan bu islahatların nəticəsində demək olar ki, Azərbaycan Respublikasının büdcə sistemi kökündən dəyişərək, yenidən quruldu.

Büdcə siyasətinin düzgün qurulması və tətbiqi çox mühüm bir məsələdir. Belə ki, büdcə siyasəti düzgün qurulmadıqda və ya tətbiqi zamanı hərhansı bir problemlə üzləşdikdə, ölkənin maliyyə sabitliyinin pozulması, inflyasiya səviyyəsində dəyişikliklər və s. kimi bir çox mənfi halın baş verməsi mümkündür. Lakin düzgün qurulan büdcə siyasətində bu hallar mənfi nəticədən müsbətə çevrilməsi, həmçinin də iqtisadiyyatın inkişafı da mümkündür.

Büdcə və büdcə sistemini öyrənmək üçün büdcə gəlirlərinin də nə olduğunu bilmək vacibdir. Büdcə gəlirləri üçün bir neçə fərqli tərif olsa da ümumiləşdirərək, büdcə gəlirlərinin dövlətin özünəməxsus müəyyən funksiyalarını reallaşdırabilmək

üçün ehtiyacı olan pul vəsaitləri olduğunu deyə bilərik. Büdcəyə daxilolmalar maliyyə vəsaitləri fondlarının formalaşması prosesində yaranmış iqtisadi münasibətləri əks etdirir. Həmçinin, büdcə gəlirləri, dövlət orqanlarının funksiyalarını tətbiq edəbilməsi üçün lazımdır. Bazar iqtisadiyyatı şəraitində, ölkələrin büdcələrinə daxilolmaları ətraflı öyrənmək prioritet məsələlər arasındadır. Ölkələrin gəlirlərinin formalaşması və yaxud ümumiləşdirsək, yaranması prosesi büdcə gəlirləri ilə birbaşa əlaqəlidir.

Yuxarıda da qeyd etdiyimiz kimi,büdcə gəlirlərini bir neçə fərqli üsulla izah etmək olar. Respublikamızın büdcəsi ilə bərabər, Naxçıvan Muxtar Respublikası və digər yerli büdcələrimizə qanunvericiliklə tənzimlənmiş daxilolmalara büdcə gəlirləri deyilir. Bu daxilolmalara vergi, rüsum və ya qanunvericiliklə icazə verilmiş başqa formalardakı ödənişlər aiddir. Büdcə gəlirləri də “Dövlət büdcəsi haqqında” qanun ilə tənzimlənir.

Büdcənin gəlirləri müəyyən xüsusiyyətlərinə görə fərqlənirlər. Həmin xüsusiyyətlərə nümunə kimi vergi ödəyiciləri, vergi tutma obyektləri, alınması üsulları, ödəniş müddəti və s. xüsusiyyətlərini misal göstərmək olar.

Ənənəvi Büdcə Sistemi büdcə sisteminin metodunun müəyyən edilməsi, ümumiyyətlə, onu digərlərindən fərqləndirən mövcud xüsusiyyətlərindən asılıdır. Başqa sözlə, büdcə “gəlir və xərclərin xarakteri” ilə bağlı hazırlanırsa büdcə sistemlərində ən erkən tətbiq olan Ənənəvi Büdcə Sistemi adlanır.

Büdcənin bölgü funksiyası,mərkəzləşdirilmiş fondlarının formalaşdırılması və istifadəsi yolu ilə dövlət və yerli hakimiyyət orqanları tərəfindən birbaşa özünü göstərir.

Büdcə gəlirləri mahiyyətcə vergi və qeyri-vergi ola bilər. Büdcə alıcıları büdcə xərcləri hesabına maliyyələşdirilir. Büdcə xərcləri hesabına, büdcə resurslarının büdcə sisteminin səviyyələri üzrə yenidən bölüşdürülməsi qrantlar, subsidiyalar, subvensiyalar verilir. Büdcə xərcləri əsasən dönməz xarakter daşıyır. Yalnız kreditlər və kredit xarakterli ödənişlər geri ödəmə əsasında işləyir.

Büdcə xərclərinin strukturu hər il büdcə planı ilə müəyyən edilir.

Büdcə gəlirləri və xərcləri tənzimləmə aləti kimi çıxış edir və iqtisadiyyatın və investisiyaların stimullaşdırılması, istehsalın səmərəliliyinin artırılması, ilk növbədə

milli iqtisadiyyatın ən mühüm sahələri olan enerji,maşınqayırma, aqrar-sənaye kompleksi inkişafına kömək edir.

Büdcə planlaşdırma funksiyası aşağıdakıları nəzərdə tutur:

- Büdcə siyasətinin, məqsədlərin, vəzifələrin və onların seçdiyi üsulların müəyyən edilməsi.
- nailiyyətlər
- orqanlar arasında səlahiyyətlərin və bölgü subyektlərinin delimitasiyası
- büdcə sisteminin bütün səviyyələrində səlahiyyətli orqanlar
- bütün maliyyə məqsədləri üçün vəsaitə ehtiyacın müəyyən edilməsi
- cəmiyyət və dövlət qarşısında hakimiyyət orqanlarına həvalə edilmiş təhlükəsizlik funksiyaları və qərar qəbuletmə vəzifələri ilə büdcənin hazırlanmasının ən yaxşı yollarının işlənib hazırlanması və əsaslandırılması
- proqnozlar əsasında büdcələrin gücləndirilməsi üçün təkliflər hazırlamaq məqsədi ilə hesablanmış məlumatlar
- büdcə layihələrinin hazırlanması və əsaslandırılması
- məhsuldarlığı təmin etmək üçün konkret tədbirlərin işlənib hazırlanması
- növbəti maliyyə dövründə büdcə siyasətinin həyata keçirilməsi maraqlarına uyğun olaraq büdcə ilinin tərtib edilməsi.

Büdcə xərclərinin maliyyələşdirilməsi qanunvericilik müddəaları, dövlət vəsaitinin ayrılması ilə tənzimlənir. Maliyyələşdirmənin geri alınmazlığı və əvəzsizliyi onu kreditləşmədən fərqləndirir, Qaytarılma və kompensasiya şərtləri ilə kreditlərin verilməsini buna nümunə göstərmək olar. Büdcə qanunvericiliyi ilə bazara keçid kontekstinin əsasında büdcədən vəsaitlərin ayrılması imkanı ödəmə və geri ödəməyə - büdcə krediti deyilir.

Büdcəyə uyğun olaraq büdcə qanunvericiliyinə kredit büdcə xərclərinin maliyyələşdirilməsi forması kimi başa düşülür ki, hərhansı büdcədən başqa büdcəyə vəsaitin verilməsini nəzərdə tutur.

Beləliklə, demək olar ki, büdcə mürəkkəb, çoxşaxəlidir. Büdcə bir neçə tərəfdən nəzərdən keçirilməlidir:

1. birincisi, büdcənin iqtisadi mahiyyəti müəyyən maliyyəni ifadə edir özünəməxsus xüsusiyyətləri olan münasibətlərdir;

2. ikincisi, büdcə dövlətin gəlir və xərc hissəsindən ibarət planı olan qanun qüvvəsidir;

3. üçüncüsü, vəsaitlərin mərkəzləşdirilmiş fondudur.

Büdcə gəlirləri pul vəsaitlərini əks etdirir. Büdcə gəlirlərinin formalaşması prosesi normalar əsasında aparılır. Büdcənin dövlət iqtisadiyyatında mühüm rolu, büdcə gəlir-xərclərinin tənzimlənməsinin və büdcənin proqnozlaşdırılmasının vacibliyi, büdcənin əhəmiyyətini bir daha sübut edir.

# II FƏSİL. YENİ YARADILMIŞ İQTİSADİ RAYONLARIN İQTİSADİ POTENSİALININ TƏHLİLİ.

## 2.1 İşğaldan azad edilmiş bölgələrdə yeni iqtisadi rayonların yaradılmasının əhəmiyyəti və gələcəkdə gətirəcəyi iqtisadi səmərənin qiymətləndirilməsi

İşğaldan azad edilmiş ərazilərin bərpasını sürətləndirmək və iqtisadi potensialından daha effektiv istifadə edəbilmək üçün Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən imzalanan fərman ilə yeni iqtisadi rayonlar yaradıldı. Yeni yaradılan iqtisadi rayonların əhəmiyyətini başa düşmək və gələcəkdə gətirəcəyi iqtisadi səmərəni düzgün qiymətləndirəbilmək üçün ilk öncə Azərbaycan Respublikası Prezidenti tərəfindən imzalanmış, yeni yaradılmış iqtisadi rayonlar ilə bağlı fərmana nəzər yetirmək lazımdır. Prezident İlham Əliyev, 2021-ci ildə yeni bir Fərman imzaladı. İmzalanan bu Fərman, iqtisadi rayonlarımızın yeni bölgüsü ilə bağlı idi.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin imzaladığı Fərmanda da göründüyü kimi işğaldan azad edilmiş bölgələrdə yeni iqtisadi rayonlar yaradılarkən bir çox fərqli amil nəzərə alınmışdır. Bu amillərə nümunə kimi həm sosial-iqtisadi həm də ənənəvi, tarixi-mədəni amilləri misal göstərmək olar. Məsələn, Qarabağ iqtisadi rayonunun yaradılması ilə qədim tarixi və mədəni irsə malik olan olan Qarabağ regionunun bərpa edilməsi, Şərqi Zəngəzur iqtisadi rayonunun yaradılması ilə isə tarixən eyni coğrafi ərazidə yerləşmiş, sosial-iqtisadi, tarixi və mədəni bağlara malik olmuş rayonların birgə inkişafı hədəflənir.

Ümumiyyətlə, beynəlxalq təcrübədə də post-konflikt dövründə, müharibə zərəri dəymiş ərazilərin bərpası çox xərc tələb edən və büdcə planlaması zamanı mühüm dəyişikliklərə səbəb olan prosesdir. Aşağıdakı diaqramda, 2022-ci il funksional təsnifatın bölmələri üzrə xərclərin ümumi büdcə xərclərində xüsusi çəkisi faizlə göstərilmişdir.

**Diaqram 1 – 2022-ci büdcə xərclərinin faizlə bölgüsü.**




Mənbə: https://marja.az/75915/2022-ci-ilin-dovlet-budcesi-aciqlandi-ilkin-gostericiler

Yuxarıdakı diaqram, Azərbaycan Respublikasının 2022-ci il üzrə büdcə xərclərinin faizlə bölgüsünü göstərir. Göründüyü kimi büdcə xərcləri çoxşaxəlidir və özündə aşağıdakı sahələr üzrə xərcləri birləşdirir:

**Cədvəl 1. Büdcə xərclərinin faizlə bölgüsü cədvəli.**

| | |
|---|---|
| İqtisadi fəaliyyət | 18.64% |
| Əsas bölmələrə aid edilməyən xidmətlər | 5.68% |
| Ümumi dövlət xidmətləri | 14.71% |
| Müdafiə və milli təhlükəsizlik | 15.53% |
| Təhsil xərcləri | 12.91% |
| Səhiyyə xərcləri | 4.98% |
| Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət | 1.58% |
| Mənzil-kommunal təsərrüfatı xərcləri | 0.86% |
| Kənd təsərrüfatı ilə əlaqəli xərclər | 3.40% |
| Ətraf mühitin mühafizəsi | 0.97% |
| Məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq | 8.38% |
| Sosial müdafiə ilə əlaqəli xərclər | 12.37% |

Mənbə: https://marja.az/75915/2022-ci-ilin-dovlet-budcesi-aciqlandi-ilkin-gostericiler

İşğaldan azad edilən ərazilərin relyefi, iqlim şərtləri və s. kimi təbii imkanları kənd təsərrüfatı üçün olduqca yararlıdır. Hələ, işğaldan əvvəlki dövrdə Laçın, Ağdam, Füzuli, Kəlbəcər, Cəbrayıl kimi rayonlarımız başda olmaq üzrə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında heyvandarlıq yüksək inkişaf etmişdi.

Torpaq balansından alınan məlumatlara görə işğaldan azad edilmiş torpaqlarımızın bərpa prosesi başa çatdıqda, 200 min hektardan artıq əkinə yararlı torpaq sahəsi istifadə ediləcək.

İşğaldan azad edilmiş ərazilərin kənd təsərrüfatı potensialı haqqında fikir əldə etmək üçün keçmiş dövrün göstəricilərinə nəzər yetirmək lazımdır. İşğaldan azad edilmiş ərazilər 1980-ci illərdə kənd təsərrüfatı baxımından yüksək göstəricilərə malik idi. 1980-ci illərin göstəricilərinə nəzər yetirək:

**Diaqram 2. İşğaldan əvvəlki dövrdə kənd təsərrüfatı göstəriciləri**




Mənbə: https://vergiler.az/news/economy/11103.html

Bundan əlavə olaraq, işğaldan əvvəlki dövrdə, yumurta istehsalının 3.6% hissəsi, yun, barama istehsalı və iri və xırdabuynuzluların 15%-dən çox hissəsi məhz həmin

bölgəyə aid idi. Keçmiş dövrün şərtləri ilə alınan bu nəticə vaistəsilə günümüzdə prioritet istiqamətlərin müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyəti var.

İşğaldan azad olunmuş ərazilərin keçmiş iqtisadi potensialı haqqında məlumat əldə etmək üçün işğaldan əvvəlki dövrə baxmaq lazımdır. Aparılan tədqiqatlar və əldə olan keçmiş məlumatlara əsasən demək olar ki, işğal səbəbi ilə indiki işğaldan azad olunmuş ərazilərdə 7 minə yaxın müəssisə bağlanmışdı, hansı ki bu müəssisələrdə ki istehsal ilə Azərbaycan Respublikasının ərzaq, içki və s. kimi tələbatlarının böyük bir hissəsi təmin olunurdu. İşğaldan azad olunmuş ərazilərdə bərpa işləri yekunlaşdıqdan sonra tətbiq olunan müasir texnologiya ilə əvvəlkindən daha yüksək məhsuldarlıq əldə etmək mümkündür.

İşğaldan azad edilmiş torpaqlarımızda bərpa və yenidənqurma işləri başa çatdıqdan sonra daha əvvəl də vurğuladığımız kimi dövlətimizin torpaq balansına, müxtəlif mənbələrin məlumatlarına görə təxminən 150-200 min hektar əkinə yararlı torpaq daxil olacaq. Bərpa işləri yekunlaşana qədər ilk növbədə, bu torpaqlardan səmərəli istifadə edəbilmək üçün müəyyən əməliyyatlar aparılmalıdır. Belə ki, təkcə əkin sahələri yox həm də yaşayış məntəqələri və digər təyinatlı torpaqlarda daxil olmaü üzrə ümumi kadastr uçotu işi aparılmalıdır ( https://agroeconomics.az/az/article/34/isgaldan-azad-olunan-erazilerimizde-kend-teserrufa/ ). Bu işlərə mövcud torpaq məlumatların yenilənməsi, xəritələndirilməsi kimi proseslər aiddir. Əldə olunan dəqiq məlumatlar həm bölgədə keyfiyyətli və yüksək səmərəliliyə malik kənd təsərrüfatının yaranmasına kömək edəcək həm də daha effektiv və sistemli planlaşdırma işlərinin görülməsinə şərait yaradacaqdır.

İşğaldan azad olunmuş ərazilərdə, torpaq kəmiyyət və keyfiyyət ölçüləri barədə dəqiq məlumat əldə edərək, kənd təsərrüfatını daha sürətli inkişaf etdirmək mümkündür.Həmin ərazilərin torpaq örtüyündə aparılan araşdırmalardan əldə olunan nəticələrə uyğun aparılan əkinçilik il üzrə daha çox məhsuldarlıq yaranmasına səbəb olar.İşğaldan azad olunmuş ərazilərdə su ehtiyyatları kifayət qədər çoxdur. Bu səbəbdən əkinçilik üçün suvarma sistemlərini yaradılması daha rahat olacaqdır və

qurulan yeni müasir suvarma sistemləri ilə məhsuldarlıq daha da artıb, su qənaətlə istifadə olunacaqdır.

ATM direktoru Firdovsi Fikrətzadənin sözlərinə görə kənd təsərrüfatının inkişafı işlərinə başlamadan əvvəl bərpa olunmuş ərazilərdə, insanların kənd təsərrüfatı ilə məşğul olabilməsi üçün müvafiq təçhizat sistemləri quraşdırılmalıdır. Həmçinin, ATM direktoru bu fikirləri də söyləyib: "Kənd Təsərrüfatı Nazirliyinin bununla bağlı aqroservis xidməti göstərən qurumu var. Həmin qurum vasitəsilə burada kənd təsərrüfatı texnikası ilə təminat sistemi qurulacaq, eyni zamanda özəl sektorun dəstəklənməsi, təşviqi mexanizmləri hesabına gübrə, toxum, pestisidlərlə təchizat sistemləri yaradılacaq. Paralel olaraq, heyvandarlıq infrastrukturunun qurulmasına da başlanılacaq. Bu rayonlarda infrastruktur, o cümlədən, fermalar dağıdılıb. İlk növbədə burada insanlar tərəfindən fermaların qurulması dəstəklənəcək. Bu fermaların iribuynuzlu və xırdabuynuzlu heyvanlarla təminatı üçün zəruri dəstək tədbirləri göstəriləcək".

İşğaldan azad edilmiş ərazilərdə arıçılıq, üzümçülük və s. kimi sahələrin inkişafı üçün böyük potensial var. Belə ki, daha əvvəl göstərilən statistikaya əsasən də işğaldan əvvəlki dövrdə, həmin ərazilərdə üzümçülük, heyvandarlıq yüksək inkişaf etmiş, bu sahələrin istehsalı ölkə üzrə böyük paya sahib idi.

ATM-in direktorunun sözlərinə görə,torpaqlarımız azad olunduqdan sonra təqribən 155 min hektara yaxın əkinə yararlı torpaq sahəsi geri qayıtdı. Həmçinin ATM direktorunun sözlərinə görə, işğaldan azad olunmuş torpaqlarımızda iribuynuzlu və xırda buynuzlu sürülər olacaq. Belə ki, iribuynuzlu heyvan sürüsünün haradasa 400 min baş ətrafı xırdabuynuzluların isə 1.5 milyon baş ətrafında olacağı düşünülür. F.Fikrətzadənin sözlərindən belə nəticəyə gəlmək olar ki, bölgədə həm heyvandarlıq həm də əkinçilik yüksək səviyyədə inkişaf edərək, işğaldan əvvəlki dövrlərdəki göstəriciləri də zamanla keçəcək.

F.Fikrətzadənin fikirlərinə görə, işğaldan azad olunmuş torpaqlarımızda, əsasən, Cəbrayıl, Ağdam kimi rayonları özündə birləşdirən Qarabağ iqtisadi rayonunda böyük

üzümçülük potensialı var. Həmçinin, müzakirədən belə bir nəticəyə gəlmək mümkündür ki, Füzuli, Ağdam kimi rayonlarımızda pambıqçılıq və tərəvəzçilik inkişaf etdiriləcək. Hətta ATM direktorunun sözlərinə görə bütün ölkə ərazisində istehsal olunan tərəvəzin, 5-6 faiz həcmində istehsalı bu rayonların payına düşəcəkdir. Tütünçülük isə daha çox Şərqi Zəngəzur iqtisadi rayonun tərkibində olan rayonlarda inkişaf etdiriləcəkdir. İşğaldan azad olunan ərazilərimizi əhatə edən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarımızda vaxtilə baramaçılıq geniş yayılmışdır ki, hətta Xankəndi şəhərində emal müəssisəsi də mövcud idi.

Azərbaycan Respublikası Prezidentinin 2 fevral 2021-ci il tarixində imzaladığı sərəncam ilə təsdiqlənmiş “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”-ində işğaldan azad olunmuş torpaqlara Böyük Qayıdışın, qarşıdan gələn on il ərzində, Azərbaycan Respublikasının sosial-iqtisadi tərəqqisinə aid beş mühüm öncəliyin arasında öz yerini tutmuşdur. Məhz, elə bu sənəd də kifayətdir ki, işğaldan azad olunmuş ərazilərə geri dönüşün, düşmən tərəfindən dağıdılmış torpaqlarımızın yenidənqurma işləri Azərbaycan Respublikası xalqı üçün nə qədər mühümdir. Lakin həmin ərazilərə dönəbilmək üçün ilk növbədə ərazi mina və partlayıcı sursatlardan təmizlənməli və bərpa edilməlidir. Dağıdılmış və talan edilmiş ərazilərimizin yenidənqurma prosesi mühüm vaxt və vəsait tələb edən bir prosesdir, ancaq Azərbaycan Respublikası Prezidentinin 2020-ci ilin yekunlarına həsr olunan müşavirədə vurğuladığı kimi: “Bizim planlarımız böyükdür. Müharibə başa çatıb. Bərpa işləri artıq başlanıb və bu, onu göstərir ki, bizim sözümüzlə əməlimiz arasında bu dəfə də heç bir fərq yoxdur. Biz demişdik ki, torpaqlar işğaldan azad olunandan sonra bu torpaqları tezliklə bərpa edəcəyik. Mən bu yaxınlarda demişdim ki, biz Qarabağ bölgəsində cənnət yaradacağıq və sözümdə dururam. Bizim hamımızdan asılıdır ki, bu sözlər yerinə yetirilsin. Ona görə 2021-ci il bu baxımdan çox əlamətdar olmalıdır. Məhz 2021-ci ildə Azərbaycan xalqı və bütün dünya görəcək ki, bizim niyyətimiz həyatda öz əksini tapır, bizim planlarımız həyatda gerçəkləşir. Keçmiş köçkünlərə tezliklə öz doğma torpaqlarına qayıtmağı arzulayıram. Hər halda

Azərbaycan dövləti əlindən gələni edəcək ki, bu gün daha da yaxınlaşsın. Vahid Azərbaycan dövləti bundan sonra uğurla, inamla inkişaf edəcəkdir".

Torpaqlarımız işğaldan azad olunandan dərhal sonra bərpa işləri başlanıldı. Azərbaycan Respublikasının dövlət büdcəsindən ( 2021-ci il üçün ) düşmən tərəfindən dağıdılmış torpaqlarımızın bərpası üçün 2,2 milyard manat ayrıldı. Bərpa işlərinin daha sürətli, layiqli və müasir təşkil olunması üçün 2021-ci il 4 yanvar tarixində Prezident İlham Əliyev fərman "Qarabağ Dirçəliş Fondu"nu yaratdı. Qarabağ Dirçəliş Fondunun məqsədi, dağıdılmış torpaqlarımızın yenidənqurulması, həmin ərazilərdə dayanıqlı məskunlaşma və yüksək rifahın yaradılmasıdır. Həmçinin, Qarabağ Dirçəliş Fondu, rəşadətli ordumuz tərəfindən düşmən işğalından azad olunmuş ərazilərimizdə güclü və davamlı iqtisadiyyat yaratmaq və həmin ərazilərin yüksək rifaha malik olması üçün maliyyə dəstəyi vermək məqsədi daşıyır. Lakin, Qarabağ Dirçəliş Fondunun, işğaldan azad edilmiş ərazilərin bərpası və iqtisadiyyatı üçün sərmayələr cəlb etməsi, dövlət və özəl sektor arasında əlaqələr yaradıb, bu əlaqələrin inkişafına dəstək vermə kimi səlahiyyətləri də olan publik hüquqi şəxsdir.

Türkiyə Cumhuriyyəti, Macarıstan, İsrail, İtaliya, Pakistan, Birləşmiş Krallıq kimi Azərbaycan Respublikası ilə dost və ya sıx münasibətdə olan ölkələrin də işğaldan azad olunmuş ərazilərin bərpası prosesində aktiv iştirak etmək arzusunda olduğunu bildirib.Azərbaycan Respublikası üçün də dost ölkələr ilə əməkdaşlıq böyük əhəmiyyət daşıyır. Hətta Azərbaycan Respublikası Prezidenti İlham Əliyev öz çıxışlarından birində, dost ölkələri bərpa işlərinə cəlb etmək barəsində ətraflı məlumat vermişdir.

İşğaldan azad olunmuş ərazilərdə yenidənqurma işləri üçün beynəlxalq təcrübələrə nəzər yetirmək mümkündür. Beynəlxalq təcrübədə müharibədən sonraki dövrdə dövlətlər öz ərazilərin bərpası və muharibə səbəbilə dəymiş zərəri bərpa etmək səbəbilə bəzi addımlar atmışdılar. Bu addımların nələr olduğu və necə həyata keçirildiyi haqqında danışmadan əvvəl yaxın tarixdə hansı ölkələrin bu misala aid oluğuna baxmalıyıq. Dünya müharibəsi bitdikdə, Yaponiya və Avropa ölkələri (xüsusilə Polşa, Almaniya və s. Qərbi Avropa ölkələri) müharibədən zərər çəkmiş ölkələr sırasında

başda gəlirdi. İkinci dünya müharibəsi zamanı, müharibənin əsas mərkəzlərindən olan Avropada, Almaniya, Polşa, Fransa, Böyük Britaniya kimi ölkələrin ərazilərinə böyük zərərlər dəymişdi. İkinci dünya müharibəsi və başqa yaxın tarixdə baş vermiş müharibə təcrübələrinə əsasən belə bir nəticə çıxartmaq olar ki, müharibə bitdikdən dərhal sonra edilən ilk iş müharibənin mənfi nəticələrini aradan qaldırmaq olub. Burada mənfi nəticələr dedikdə, ərazilərin dağıdılması,iqtisadiyyatın məhv olması, müharibədən zərər çəkmiş əhalinin zərərinin qarşılanması və s. nəzərdə tutulur. Beynəlxalq təcrübə göstərir ki, müharibədən sonra ərazilərin bərpası və müharibənin mənfi nəticələrinin aradan qaldırılması prosesində, təkcə zərərçəkmiş dövlət yox həm də digər ölkələr, beynəlxalq təşkilatlar da birbaşa iştirak edir yaxud yardımlar edirlər. Tarixdəki beynəlxalq təcrübəyə əsasən göstərilən yardımlara, kreditlərin və qrantların verilməsi,ianələr, investisyalar və s. kimi dəstəkləyici prosesləri misal gətirmək mümkündür.

Azərbaycan Respublikasının işğaldan azad edilən ərazilərində də, beynəlxalq təcrübədən istifadə edilərək, həmin dağıdılmış ərazilərin bərpasını sürətləndirmək mümkündür.

İşğaldan azad olunmuş ərazilərin bərpası prosesində mümkün ola biləcək dəstəklərə nümunə kimi İkinci dünya müharibəsindən sonra Amerika Birləşmiş Ştatlarında, Avropanın müharibə səbəbi ilə dağılmış ərazilərin yenidənqurma prosesinə maliyyə vəsaiti ayırmaq üçün “Marshall” planının tətbiqinə başladı. Plana görə, 15 milyard dollardan çox vəsaiti olan yardım proqramı idi. Marshall Planı ilə 16 ölkəyə yardım göstərildi. Bu ölkələrə: Böyük Britanya,  İrlandiya, Fransa, Qərbi Almaniya , İtaliya, Yunanıstan, Türkiyə, Portuqaliya, Norveç, İsveç, Danimarka, Niderland, Belçika, İsviçrə, İzlandiya və Avstriya daxil idi.

Ümumiyyətlə, beynəlxalq təcrübədə, post-konflikt dövrdə müharibədən əziyyət çəkmiş dövlətlərə yardım və həmin dövlətlərin bərpa prosesinə nümunə kimi baxmaq istəsək, əlimizdəki ən yaxşı və dolğun təcrübə İkinci Dünya müharibəsinə aiddir. İkinci Dünya müharibəsinin məğlub tərəfləri kimi Yaponiya və Almaniya, müharibədən ən

çox əziyyət çəkmiş ölkələrə isə Avropa ölkələrini misal göstərmək olar. İkinci Dünya müharibəsindən sonra həmin ölkələrin ərazilərinin bərpası və həmin ölkələrdə yaranan iqtisadi böhran, müxtəlif dövlətlər, qurumlar və s. tərəfindən göstərilən yardımlar ilə aradan qaldırılıldı. Bu yardımlara, sadəcə maliyyə kreditləri və maliyyə yardımı yox həm də xammal, neft kimi energetika məhsulları da aid idi.

Dünya Bankının verdiyi hesabatlara əsasən, müharibə səbəbilə zərərçəkın dövlətlərə xarici yardım yüksələn templə artmışdır.

2011-ci ildə Dünya Bankının hazırlayıb, təqdim etdiyi hesabata nəzər yetirsək, 1990-cı illərə nisbətən 2000-ci illərdə müharibə səbəbi ilə zərərçəkmiş ölkələrə edilən yardımlar ( xarici yardımlar ) 40% ətrafına qədər artmışdır. Zərərçəkən dövlətlərin iqtisadiyyatı, əhalisinin sosial vəziyyəti və ərazilərinə dəyən zərərin aradan qaldırılması tədbirləri üçün yardımlar toplanır. Məsələn, İsveç Krallığı paytaxtı Stokholm şəhərində keçirdiyi tədbir ilə Livan üçün 900 milyon dollar ətrafında yardım toplamışdır. Burada göstərilən yardımlar müxtəlif formalarda: qrant layihələri, kreditlər, Livan Mərkəzi Bankına fərdlər və ya təşkilatlar tərəfindən birbaşa xarici depozitlər idi. **(** https://science.gov.az/en/news/open/15789 **)**

Ümumiyyətlə, beynəlxalq təcrübəni təhlil etsək, belə bir nəticəyə gələrik ki, ərazilərindəki döyüş əməliyyatlarını başa vurmuş dövlətlərinin bəzi mühüm hədəfləri olmalıdır. Həmin hədəflərə nümunə kimi, müharibədən çıxmış əhalinin əsas və təxirəsalınmaz ehtiyaclarının ödənməsi, zərər dəymiş ərazilərin bərpası və yenidənqurması, zədələnmiş iqtisadiyyatın bərpası və tərəqqisinin təmin edilməsi və s. kimi müharibə səbəbi ilə birbaşa və ya dolayı yolla ziyan çəkmiş sahələrin bərpası əsas hədəflər arasındadır. Yuxarıda sadalanan mərhələlərin icrası prosesində beynəlxalq qurumlar, xarici ölkələr və müəyyən təşkilatların dəstək və yardımlarının əhəmiyyəti böyükdür. Belə ki, tarixdə baş vermiş beynəlxalq təcrübələrə nəzər salsaq, yuxarıda da vurğuladığımız xarici ölkələr, beynəlxalq təşkilat və qurumların zərərçəkmiş ölkəyə ianə, investisya, qrant, kredit və s. kimi maddi və humanitar yardımların etdiklərini görərik.

İşğaldan azad olunan ərazilərimizin bərpası və yenidəqurma işlərinin davam etdiyi zamanda, beynəlxalq təcrübədən istifadəni əhəmiyyəti böyükdür. Torpaqlarımızın bərpası işləri tamamlandıqdan sonra yerli əhalinin bölgəyə geri qayıdış prosesi başlayacaq və bərpa işləri davam edən zaman həm də iqtisadiyyatın inkişafı da təmin ediləcəkdir. Bütün bu proseslərin böyük vaxt və vəsait tələb edəcəyi məlumdur və belə olduğu halda beynəlxalq təcrübənin müvafiq situasiyaya uyğunlaşdırılıb, tətbiq edilməsinin fayda verməsi mümkündür.

İşğaldan azad edilmiş bölgələrdə yeni iqtisadi rayonların yaradılmasının məqsədi ilkin olaraq həmin ərazilərin sürətli, keyfiyyətli və mədəni-tarixi memarlığına uyğun müasir standartlarda bərpa etməkdir. Belə ki, işğaldan azad olunmuş hər bir rayon və şəhərin özünəməxsus memarlığı və tarixi vardır və bərpa işləri və şəhərlərin planı hazırlanarikən bu faktor mütləq nəzərə alınmalıdır.

Yeni iqtisadi rayonların yaradılmasına səbəb kimi, fiziki-coğrafi və tarixi səbəbləri göstərmək olar. Belə ki, məsələn, Şərqi Zəngəzur iqtisadi rayonu dağlıq ərazidə yerləşən rayonları öz ətrafında birləşdirir. Həmçinin, Şərqi Zəngəzur iqtisadi rayonunun tərkibindəki rayonların tarixinə baxsaq, həmin rayonlar tarix boyu Zəngəzur mahalının tərkib hissəsi olublar.

Bir digər əsas səbəb isə bölgənin tələbindən irəli gəlir. Belə ki, enerji,su ehtiyyatları və s. insan yaşayışı üçün zəruri olan ehtiyyacları qarşılamaq üçün iqtisadi rayonların bölgüsü bu formada edilmişdir. Məsələn, Qarabağ iqtisadi rayonunda qurulacaq olan sistemlər ilə bölgə günəş və külək enerjisindən istifadə edə biləcək. Həmçinin, Qarabağ iqtisadi rayonlarındakı su elektrik stansiyalarından da yenə elektrik enerjisi əldə etmək mümkün olacaq. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bir çox yeraltı şirin su mənbələri də vardır. Bu su  şirin mənbələrindən istifadə edərək, həmin rayonlarda yaşayan xalqı təmin etmək mümkün olacaq.

İşğaldan azad olunan ərazilərdə yeni yaradılan iqtisadi rayonların gələcəkdə gətirəcəyi iqtisadi səmərənin qiymətləndirilməsi üçün ilk öncə həmin ərazilərin bərpa və təmizlənmə prosesi ilə tanış olmaq və həmçinin prosesdə iştirak edən xarici ölkələrin

də rolunu öyrənmək lazımdır. Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının tərkibindəki rayonlar həm də öz iqtisadi potensiallarına görə qruplaşdırılmışlardır. Böyük ərazini əhatə edən və bir çox xarici və yerli investorun diqqətini cəlb edən və əsas nəqliyyat yollarının üzərində yerləşən bu iqtisadi rayonların, böyük iqtisadi potensiala sahib olduqları şübhə doğurmur.

## 2.2 Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının iqtisadi potensialının öyrənilməsi.

İşğaldan azad edilmiş ərazilərdəki yeni yaradılmış iqtisadi rayonların gələcəkdə gətirəcəyi iqtisadi səmərə haqqında fikir formalaşdırabilmək üçün ilk öncə onları, bir növ təhlil etmək lazımdır.

Qarabağ iqtisadi rayonu təbii ehtiyyat və özünəməxsus təbiəti ilə fərqlənir. Qarabağ iqtisadi rayonunun ərazisi 8,99 min kvadrat kilometr, əhalisi isə 904,5 min nəfərdir. Qarabağ iqtisadi rayonunun ərazisi kənd təsərrüfatı üçün olduqca yararlıdır. Heç şübhəsiz bu səbəbdən də, Qarabağ iqtisadi rayonunun, iqtisadiyatının əsas sahələrindən biri də kənd təsərrüfatı olacaqdır. Bundan başqa, Qarabağ iqtisadi rayonunun yetəri qədər gözəl təbiəti və özünəməxsus tarixi vardır. Elə məhz, bu səbəblərə görə də, gələcəkdə, Qarabağ iqtisadi rayonunda turizmin inkişafı mütləq olacaqdır. Qarabağ iqtisadi rayonunun tərkib hissəsi olan, Füzuli rayonunun yaxınlığında yerləşən, Azıx mağarası ( dünyada mövcüd olan ən qədim ərazilərdən biridir ) da insanların maraq mərkəzində olan turizm bölgələrindən biri olacaqdır.

Dünyadakı ən qədim yaşayış məskənlərinin arasında olan Azıx mağarasının turizm potensialı böyükdür. Qarabağ iqtisadi rayonunun əsas təbii sərvətlərinə nümunə kimi, polimetal filiz yataqları, tikinti materialları, mineral suları sadalamaq olar. Həmçinin, Qarabağ iqtisadi rayonu su rezervləri baxımından da zəngin bir bölgədir. İşğaldan azad olunmuş ərazilərdə , 155 müxtəlif növ faydalı qazıntı yataqları vardır.

Şərqi Zəngəzur iqtisadi rayonu, Kəlbəcər, Qubadlı, Laçın, Cəbrayıl və Zəngilan rayonlarını özündə birləşdirir. Ərazisi 7.47 min kvadrat kilometr olan Şərqi Zəngəzur

iqtisadi rayonunun əhalisi 343,5 min nəfərdir. Şərqi Zəngəzur iqtisadi rayonunun iqtisadiyyatının əsasını kənd təsərrüfatı, sənayə və turizm təşkil edəcəkdir. Qızıl, civə, mərmər, üzlük tikinti daşları, kopal, perlit isə Şərqi Zəngəzur iqtisadi rayonunun əsas təbii ehtiyyatları sırasına daxildir. Həmçinin bölgədəki filiz yataqları, işğaldan azad olunmuş ərazilərin, dağ-mədən sənayesi və metallurgiyasının inkişafına təkan verəcəkdir.

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları üçün hazırlanmış, özündə həmin iqtisadi rayonlara aid məlumatları birləşdirən cədvələ nəzər salaq:

**Cədvəl 2. Şərqi Zəngəzur iqtisadi rayonun göstəriciləri.**

| İqtisadi rayona daxil olan inzibati rayonlar | Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları |
|---|---|
| Ərazisi | 7,47 min kv. Km |
| Əhalisi | 343,5 min nəfər |
| İqtisadiyyatının əsas sahələri | Kənd təsərrüfatı, sənaye, turizm |
| Təbii ehtiyatları | Qızıl, civə, mərmər, üzlük tikinti daşları, kopal, perlit |

Mənbə: https://www.economy.gov.az/article/sherqi-zengezur-iqtisadi-rayonu/31896

Qarabağ iqtisadi rayonun da Şərqi Zəngəzur iqtisadi rayonu kimi özünəməxsus, nadir təbii sərvətləri və iqtisadiyyatının önə çıxan sahələri vardır.

**Cədvəl 3. Qarabağ iqtisadi rayonun göstəriciləri.**

| İqtisadi rayona daxil olan inzibati rayonlar | Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları |
|---|---|
| Ərazisi | 8,99 min kv. Km |
| Əhalisi | 904,5 min nəfər |
| İqtisadiyyatının əsas sahələri | Kənd təsərrüfatı, sənaye və turizm |
| Təbii resursları | Filiz yataqları, mineral suları, tikinti materialları |

Mənbə: https://www.economy.gov.az/article/qarabag-iqtisadi-rayonu/31889

Ümumiyyətlə, işğaldan azad olunan torpaqlarımız, çox böyük bir ərazini əhatə edir. Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonları kimi böyük ərazilərdə bərpa prosesinə başlayanda, həmin ərazilərin hər bir bölgəsinə fərqli və fərdi yanaşılmalıdır.

Ancaq belə olduğu halda, həmin ərazilərdən yüksək məhsuldarlıq əldə etmək olar. İşğaldan azad olunmuş ərazilərdən yüksək iqtisadi səmərəlilik və məhsuldarlıq əldə etmək dedikdə, sadəcə o ərazilərin torpaq landşaftına uyğun kənd təsərrüfatı planlanması etmək və yeraltı təbii sərvətlərindən düzgün istifadə etmək yox həmçinin düzgün şəhərsalma və sənayenin inkişafına da diqqət yetirmək mütləqdir. Məlumdur ki, düşmən işğal dövründə, ərazilərimizi darmadağın etmiş, hətta yerləşdirdiyi partlayıcı silah-sursat ilə həmin ərazilərin torpaq örtüyünü də məhv etmişdir. Məhz, bu səbəbdən, ilk növbədə, işğaldan azad olunmuş ərazilərdəki mina və başqa partlayıcı silah-sursatlar təmizlənməli, torpaq örtüyü və çirklənmiş su hövzəsi bərpa edilməli və təmizlənməlidir. Daha sonra isə artıq, yenidənqurma işlərinə başlamaq lazımdır. Yenidənqurma işləri zamanı ən vacib məsələ, şəhərlərin baş planının tərtib olunmasıdır. Elə məhz, bu səbəbə görə, Şuşa, Füzuli kimi işğaldan azad olunan şəhərlərin baş planı hazırlandı. Bir şəhərin baş planı hazırlananda, əsas diqqət yetirməli olan məsələlər arasında, planlı yaşayış məskənlərinin salınması, nəqliyyat yollarının ən optimal şəkildə formalaşması, mühüm obyektlərin planlı yerləşdirilməsi və s. vardır.

İşğaldan azad olunmuş ərazilərin böyük tarixi vardır. Həmin tarixi ərazilərin, hər birinin, özünəməxsus və fərqli memarlığı olub. Şəhərlər bərpa olunarkən, həmin bu memarlığ istinad götürülərək, necə deyərlər, əvvəlki sima qorunaraq amma müsair tələblərə uyğun şəkildə bərpa olunacaqdır.

Ərazilərin bərpası zamanı, şəhər və kəndlərin müasir tələblərə uyğun olması, sadəcə əhalinin rifah və rahatlığı baxımından deyil həmçinin, iqtisadi səmərə və məhsuldarlığı yüksəltməyə təkan verən əsas amil olacaqdır. İnşa edilən və planları hazırlanan bütün bu ağıllı kənd, şəhər layihələrinin məqsədi, az xərc və ərazi ilə yüksək məhsuldarlıq əldə etməkdir. Praktikada bu metodlar sınanıb və uğurlu nəticələr əldə olunmuşdur.

İşğal dövründə, düşmən, Azərbaycan xalqının ərazilərimizdə uzun illər yaratdığı bütün infrastruktur, maddi-mənəvi sərvətləri tamamilə dağıtmışdır. Tarixi abidələr,

evlər, yollar, mühüm dövlət obyektləri (məktəb,xəstəxana və s. kimi) dağıdılmış, torpaq və su ehtiyyatları yararsız hala salınmışdır.

Aparılan tədqiqatlara əsasən, işğaldan azad olunmuş ərazilərin iqtisadiyyatı böyük və müxtəlif sahələrdən ibarət idi. Belə ki, Azərbaycan Respublikasının 20% hissəsini əhatə edən bu ərazilər, təbii sərvətlər baxımından ən zəngin regionlardan biri olmuşdur. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları qızıl, mis, qurğuşun, sink, mineral sular və s. kimi olduqca əhəmiyyətli həmçinin dünya və yerli bazarda yüksək tələbata sahib olan materiallar ilə zəngindirlər.

Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan, Zəngilan, Kəlbəcər, Laçın, Qubadlı, Cəbrayıl rayonları təbii ehtiyyatlarına və turizminə görə seçilirlər. Kəlbəcər, Laçın, Zəngilan kimi rayonlar kurort zonası kimi olduqca əlverişlidir. Çünki, bu ərazilərdə, müalicəvi sular, nadir meşələr və işğaldan azad olunmuş digər bütün ərazilərimizdə olduğu kimi tarixi keçmişi və xüsusi memarlığı vardır. Bundan başqa, Şərqi Zəngəzur iqtisadi rayonunun, İran, Ermənistan və Zəngəzur dəhlizi ilə Türkiyəyə birbaşa çıxışı vardır. Bu imkanlarda, bölgəni bir çox mühüm koridorun kəsişdiyi yer və həmçinin də qərb və şərqi birləşdirən stretjik məkana çevirir.

İşğaldan azad olunmuş ərazilərdəki başlamış və gələcək illərdə də davam edəcək olan bərpa və yenidənqurma işləri, Azərbaycan Respublikası üçün böyük məna daşıyır. Belə ki, həm uzun illər boyu işğalda qalmış və dağıdılmış torpaqlarımız azad olunub, öz tarixini və keçmişini bərpa edəcək həm oradan didərgin düşmüş xalq öz torpaqlarına qayıdacaq həm də bərpa işləri bitdikdən sonra Azərbaycan Respublikası iqtisadiyyatında böyük artım olacaqdır. Sadəcə, sənaye və istehsal sayəsində iqtisadiyyatdakı artımı bir kənara qoysaq, işğaldan azad olunan ərazilər özünəməxsus mədəniyyəti, təbiəti və tarixi ilə əsas turizm mərkəzinə çevriləcəyi şübhə doğurmur. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları qədim, köklü və zəngin tarixi, özünəməxsus mədəniyyəti ( musiqiləri, incəsənəti, ədəbiyyatı), tarixi abidələri, təbiəti ilə bütün dünyada fərqlənir.

İşğaldan azad edilmiş ərazilərimiz böyük təbii sərvət bazasına sahibdir. Belə ki, həmin ərazilərin, böyük su ehtiyyatları, zəngin faydalı qazıntıları,kənd təsərrüfatı üçün yararlı torpaqları vardır. Bu bölgədən keçən çaylar və həmçinin bölgədə yerləşən su ehtiyyatları sayəsində böyük elektrik enerjisi də əldə etmək mümkündür.

Düşmənin işğal dövründə, torpaqlarımızı amansızca talan etməsi nəticəsində, əraziyə böyük zərər dəymişdir. Düşmən sadəcə nəqliyyat yolları və mühüm obyektləri deyil həmçinin yerləşdirdiyi mina, partlayıcı silah-surat və s. kimi hərbi tullantılar ilə torpaq örtüyünə də böyük zərər vermişdir. Belə ki, aparılan tədqiqatlar və əldə olunan rəqəmlərə görə işğal zamanı düşmən tərəfindən şəhərlər və rayon mərkəzləri, 10-dan çox qəsəbə və 800-dən çox kənd dağıdılmışdır. Bu rayon, şəhər və kəndlərin daxilində yerləşmiş 700-ə yaxın tibb müəssisi, dövlət teatrları, sənayə müəssisələri dağıdılmışdır.

İşğaldan əvvəlki dövrdə, işğaldan azad olunmuş ərazilərimizin istehsal potensialı böyük idi. Həmin ərazilərimiz, kənd təsərrüfatı məhsulları istehsalında yüksək nəticələri ilə fərqlənirdi. Hətta, ümumulikdə bölgə, müəyyən məhsullar üzrə liderlikdə idi. İndi isə yeni və müasir metod və texnologiyalar ilə daha yaxşı nəticə əldə etmək mümkündür. Başqa mənbələrdən əldə olunan məlumata görə işğaldan əvvəlki dövrdə, aşağıdakı məhsulların ümumi istehsalının böyük bir qismi həmin ərazilərin payına düşürdü:

**Diaqram 3. İşğaldan əvvəlki dövrdə, torpaqlarımızın istehsal potensialı.**




Mənbə: http://ikisahil.com/post/242069-qarabagin-iqtisadi-potensiali-ve-inkishaf-perspektivleri

İşğaldan azad olunmuş ərazilərimiz, işğaldan əvvəlki dövrdə, böyük meşə sahələrinə ev sahibliyi edirdi. Belə ki, sadəcə Zəngilan rayonu ərazisindəki, çinar meşəsi, Avropada ən böyük, dünyada isə ikinci yeri tuturdu (Çinar meşələrinə görə dünyada birinci yeri tutan ölkə, Kanadadır). Zəngilan çinarları dünyada bitən 8 çinar növündən biri idi. Əfsuslar olsun ki, işğal dövründə, həmin bu meşələr də, düşmən tərəfindən talan edilmişdir.

Zəngilan rayonu başda olmaqla, işğaldan azad olunan ərazilərimizin hər bir güşəsində meşə sahələri böyük əraziləri əhatə edirdi. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin imzaladığı sərəncam ilə 107 hektar ərazidə yerləşən Bəsitçay Dövlət Qoruğunun bərpa olunması göstərişi verilib. Zəngilan rayonu ərazisində, Bəsitçay dərəsində yerləşən bu qoruqdakı çinar meşəliyi, çay boyu 12 kilometr məsafəyə qədər uzanırdı. Özünəməxsus gözəlliyi olan və olduqca nadir çinarlardan biri olan Şərq Çinarı "Qırmızı Kitab"a daxil edilmişdi və bu Şərq Çinarlarının yaşı 500 ilə yaxın idi. Bundan başqa da, işğaldan azad olunmuş digər ərazilərdə də meşələrin bərpası nəzərdə tutulur.

Hətta, aparılan tədqiqatlar onu göstərir ki, işğaldan azad olunmuş ərazilərin meşə sahəsi, 246,7 min hektara yaxın ərazini əhatə edirdi (xalqqazeti, 9 dekabr 2020-ci il səhifə 9, Leyla Rəşid).

İşğaldan əvvəlki dövrdə, indiki işğaldan azad olunmuş ərazilərdəki nadir bitki və heyvanları qorumaq üçün yaradılmış bri çox qoruq və yasaqlıq mövcud idi. Bunlara nümunə kimi Bəsitçay Qoruğu, Qaragöl Qoruğu, Daşaltı Yasaqlığı, Laçın Yasaqlığı, Qubadlı Yasaqlığı, Arazboyu Dövlət Təbiət Yasaqlığını göstərmək olar.

İşğaldan azad olunan ərazilər, üzümçülük, pambıqçılıq və s. kimi kənd təsərrüfatı məhsulları yetişdirmək və heyvandarlıq üçün olduqca əlverişlidir. İşğaldan əvvəlki dövrlərdə, indiki Qarabağ iqtisadi rayonunun tərkib hissəsi olan Ağdam və Füzuli rayonları, pambıqçılıq və üzümçülük üzrə Azərbaycan Respublikası ərazisində fərqlənən rayonlar sırasında idilər. Şərqi Zəngəzur iqtisadi rayonun tərkib hissəsi olan və əsasən dağlıq ərazini əhatə edən, Kəlbəcər, Laçın, Qubadlı və Zəngilan kimi

rayonlarımız da isə iri və xırdabuynuzlu heyvandarlıq inkişaf səviyyəsinə görə fərqlənirdi.

İşğaldan azad olunmuş ərazilərdə, əsasən də Şərqi Zəngəzur iqtisadi rayonun, Laçın və Kəlbəcər rayonlarında böyük mineral su yataqları vardır. Bu rayonlardakı mineral su yataqlarının əksəriyyəti, müalicəvi xarakter daşıyır. Şərqi Zəngəzur iqtisadi rayonunda yerləşən mineral su yataqlarına nümunə kimi, Kəlbəcər rayonu ərazisində yerləşən, İstisu, Keşdək, Bağırsaq, Laçın rayonunda isə Minkənd və İlıqsu'nu nümunə göstərmək olar. Şərqi Zəngəzur iqtisadi rayonu kimi Qarabağ iqtisadi rayonunun işğaldan azad olunmuş ərazilərində də mineral su yataqları mövcuddur. Belə ki, Şuşa rayonu ərazisində, Turşsu, Şırlan kimi mineral su yataqları mövcuddur. Şübhəsiz ki, işğaldan azad olunan ərazilər, bərpa olunandan sonra həmin mineral su yataqları vaistəsilə həm iqtisadiyyatımız böyüyəcək həm də regionun mineral suları dünyada tanınacaq.

İşğaldan azad olunmuş ərazilərin iqtisadi potensialından tam istifadə etmək üçün ilk növbədə, ərazilər təhlükəli partlayıcılardan təmizlənməli, bərpa edilməli və yerli əhali öz torpaqlarına geri dönməlidi. Bu səbəbdən də, ərazilərin təhlükəli partlayıcılardan təmizlənməsi ilə bərabər lazımı infrastruktrun yarana bilməsi üçün ilk növbədə nəqliyyat yolları bərpa edilməlidir. Nəqliyyat yolları, bərpa prosesini və əhalinin öz doğma yurdlarına geri döməsini sürətləndirməklə bərabər, gələcəkdə Azərbaycan Respublikasının ən böyük turizm mərkəzlərindən biri olacaq ərazilərə sürətli və rahat gedişi təmin edəcək. Bundan əlavə, daha əvvəl də vurğuladığımız kimi, Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonları bir çox əhəmiyyətli nəqliyyat yollarının kəsişməsində yerləşir. Həmçinin, Azərbaycan Respublikasının qərbə açılan ən böyük qapılarından biri də, məhz bura olacaqdır. Nəqliyyat yolları dedikdə, sadəcə avtomobil yollarını deyil həm də hava və dəmir yolları da nəzərdə tutulur. Bu nəqliyyat infrastrukturuna nümunə kimi, Füzuli hava limanı, Füzuli-Şuşa yolu, Toğanalı-Kəlbəcər yolu, Horadiz-Zəngilan-Ağbənd dəmir yolu, Kəlbəcər və ya Laçında tikiləcək

beynəlxalq hava limanı və Horadiz yaşayış məntəqəsindən Zəngilan rayonuna, daha sonra Qubadlı rayonuna və Laçın rayonuna qədər çəkiləcək olan yolu göstərmək olar.

Başqa vacib bir məsələ isə elektrik enerjisidir. Bu sahədə də lazımı addımlar atılmışdır. Belə ki, daha əvvəl də vurğuladığımız kimi işğaldan azad olunmuş ərazilər su elektrik stanstiyalarının inşası və istifadə olunması üçün əlverişli ərazidir. Laçın rayonunda Güləbird Su Elektrik Stansiyası, Suqovuşan Su Elektrik Stansiyası və Cəbrayıl rayonunda yerləşən, tikintisini başlanan, Xudafərin və Qız Qalası Su Elektrik Stansiyalarını nümunə kimi göstərmək mümkündür. Xudafərin su anbarının bərpası ilə birliktə 75 min hektara yaxın ərazi suvarılacaqdır. Respublikamızın ən hündürdə yerləşən və bolsulu su anbarlarından olan Sərsəng su anbarınında işğaldan azad edilməsiylə ətraf rayonların da suvarma suyu ilə təminatında yüksəliş olacaqdır. Belə ki, Sərsəng su anbarı ilə Tərtər, Goranboy, Yevlax kimi rayonlar suvarma suyu ilə təmin olunacaqdır. Bundan başqa, işğaldan azad olunmuş ərazilərin bir qisminə elektrik enerjisi verilməsinə başlanılıb. Sərsəng, Xudafərin hidrovşağı ilə Azərbaycan Respublikası ilə 368 milyon kvt/saata yaxın elektrik enerjisi istehsal edəcək. Həmçinin Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarını Yaşıl enerji ilə təmin etmək düşünülür. Belə ki, məsələn, Şərqi Zəngəzur iqtisadi rayonunun, Kəlbəcər və Laçın rayonları kimi ərazilərində külək enerjisindən, Zəngilan və Cəbrayıl rayonu kimi ərazilərində isə günəş enerjisindən istifadə nəzərdə tutulur. Aparılan tədqiqatlardan gəlinən nəticəyə görə Azərbaycan Respublikasının 25% su ehtiyatları, məhz işğaldan azad olunan ərazilərdə yerləşir. Elə bu amil də, ərazinin su elektrik stansiyalarının inşası üçün əlverişli olduğunu göstərir. Hətta 44 günlük müharibədən sonra, Azərbaycan Respublikası torpaqlarını işğaldan azad edərək həm də 30 SES üzərində nəzarəti ələ keçirdi. Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin ilkin hesablamalarına görə, işğaldan azad olunmuş ərazilər 4 min meqavatdan çox günəş enerjisi və 5 yüz meqavat qədər külək enerjisi potensialına malikdir. Bu göstəricilər də Azərbaycan Respublikasını daha böyük enerji ixracatçısına çevirir.

Bunu da vurğulamaq lazımdır ki, işğaldan azad olunmuş ərazilərdə bir çox yeraltı şirin su mənbəyi vardır. Bütün dünyada, qlobal problemə çevrilən şirin su ehityyatlarının azaldığı bir dövrdə, bu şirin su mənbələri də Azərbaycan Respublikası üçün çox vacibdir.

İşğaldan azad olunmuş ərazilərdə, daha əvvəl də vurğuladığımız kimi, dost xarici ölkələrin şirkətləri də yaxından iştirak etmək niyyətindədir. Belə ki, artıq bir çox xarici şirkət bərpa prosesinə qoşulub və ya bərpa və yenidənqurma işləri üçün kreditlər ayırıb. Məsələn, Macarıstan işğaldan azad olunmuş ərazilərin mina və digər partlayıcı silah-sursatdan təmizlənməsi üçün müəyyən məbləğdə qrantlar təklif etmişdir. Bundan başqa, yenə Macarıstanın "EximBank"ı, bərpa və yenidənqurma işlərində iştirak edəcək şirkətlər üçün kredit ayırdığını bildirib. İtaliyanın "Ansaldo Energia" şirkəti ilə "Azərenerji" ASC arasında, işğaldan azad edilmiş ərazilərin elektriklə təmin edilməsi məqsədilə elektrik infrastruktrunun qurulması sahəsində əməkdaşlıq üçün müqavilə imzalanmışdır. "Ansaldo Energia" və "Azərenerji" ASC arasında bağlanan müqaviləyə əsasən, Şərqi Zəngəzur iqtisadi rayonunda yerləşən, Kəlbəcər və Qubadlı rayonlarında və həmçinin Qarabağ iqtisadi rayonunun tərkib hissəsi olan Füzuli və Ağdam rayonlarında tikiləcək olan, 4 ədəd 110 kilovoltluq yarımstansiyaların avadanlıqlarını İtaliyanın "Ansaldo Energia" şirkəti təchiz edəcək.

Türkiyənin tikinti şirkətləri də bərpa prosesində yaxından iştirak edir və həmçinin Türkiyə ilə birlikdə imzalanmış memorandum ilə işğaldan azad olunmuş ərazilərdə Yüksək Texnologiyalar Parkının qurulacağı bildirilib. Belə ki, Türkiyə ərazisində yerləşən və orada fəaliyyətdə olan, 100-dən artıq texnologiya şirkətinə dəstək verən "GOSB" texnoparkı ilə Azərbaycan İnnovasiyalar Agentliyi arasında "Mədəni və Elmi Əməkdaşlıq" memorandumu imzalandı. İmzalanan memoranduma görə "GOSB" texnoparkı ilə birgə işğaldan azad olunan ərazilərdə Yüksək Texnologiyalar Parkı yaradılacaq. Yaradılacaq olan, Yüksək Texnologiyalar Parkında, ən son elmi araşdırmalar aparılacaq və həmçinin, müasir və yüksək texnoloji cihazlar istehsal ediləcək.

Birləşmiş Krallıq da, işğaldan azad olunmuş ərazilərimizdə müəyyən humanitar yardımlar edib. Bu yardımlara nümunə kimi, mina və partlayıcı sursatların təmizlənməsini göstərmək olar.

Daha bir çox ölkə də, işğaldan azad olunmuş ərazilərin bərpası və iqtisadiyyatının dirçəlməsi prosesində iştirak etmək və müəyyən yardımlar etmək niyyətini bildirib.

İşğaldan azad olunmuş ərazilərdə, bərpa işləri yekunlaşdıqdan sonra həmin ərazilərdə, kənd təsərrüfatı, sənaye, müxtəlif sahələrdə istehsalat və turizmin yüksəlməsi mütləqdir.

İşğaldan azad olunmuş ərazilər, bərpa prosesində, bir növ özlərini xammal baxımından təmin edə bilirlər. Belə ki, nümunə kimi Cəbrayıl rayonun bərpa prosesində lazım ola biləcək bir çox tikinti materialını elə həmin rayonun özündən təmin etmək mümkündür. Bu materiallara nümunə kimi: tulus tuflar hansı ki mişar daşının istehsalında istifadə olunur, tikintiyə yararlı qum, gil, vulkan külləri, əhəngdaşı və s. (xalqqazeti, 9 dekabr 2020-ci il səhifə 9, Leyla Rəşid)

İşğaldan azad olunmuş ərazilərdəki təbii sərvətlərin yenidən istifadəsinə başlamaqla, bölgədəki və ümumi iqtisadiyyatdakı inkişafı təmin etmək və həmçinin metallurgiya kimi mühüm sahənin inkişafını da görmək mümkündür. Metallurgiyanın mühüm olma səbəblərindən biri kimi hərbi sənayedəki yerini nümunə göstərmək olar.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının iqtisadi potensialı çoxşaxəli və böyükdür. Belə ki, gələcək iqtisadi gəlir mənbələrinin bəzilərinə nəzər yetirərək,bölgənin investisya üçün nə qədər əlverişli olduğunu görməklə yanaşı həm də gətirəcəyi iqtisadi səmərə ilə bağlı ilkin təsəvvür yaratmaq da mümkündür.

Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonları, külək, günəş və su enerjisi ilə özünü böyük ölçüdə təmin edəbiləcək və hətta xarici ölkələrə də elektrik ixrac edə biləcəkdir.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarından gələbiləcək ikinci gəlir məhz, şirin və mineral sulardır. Belə ki, hər iki iqtisadi rayonun yetəri qədər mineral və şirin su mənbələri vardır ki, (hansı ki tədqiqatımız da da həmin su mənbələri haqqında məlumat verilmişdir.) bu mineral və şirin su mənbələri bölgəni təmin etməklə yanaşı,

xarici ölkələrə də ixracı mümkündür. Həmçinin, gələcəkdə, bu nadir mineral su yataqlarına böyük turist axınının olacağı da şübhə doğurmur.

Əsas məsələlərdən biri də kənd təsərrufatı və sənayedir. Belə ki, daha əvvəl də vurğuladığımız kimi, hər iki iqtisadi rayonda yetəri qədər su ehtiyyatları və anbarları vardır ki, bu anbarlar sayəsində ətraf rayonlarda suvarma işləri artacaqdır. Həmçinin, bərpa prosesində istifadə olunacaq, "ağıllı kənd" layihəsi ilə, müasir və yeni texnologiyalardan istifadə ilə daha çox məhsuldarlıq əldə etmək mümkün olacaqdır. Həmçinin, hər iki iqtisadi rayonun tərkibində olan ərazilər, heyvandarlıq üçün də olduqca əlverişlidir. Belə ki, işğaldan əvvəlki dövrdə, həmin ərazilər iribuynuzlu və xırdabuynuzlu heyvandarlıqda fərqlənirdilər.

Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının yeraltı təbii sərvətləri də yetəri qədərdir. Bu təbii sərvətlərin çıxarılıb xammal kimi satılması, müxtəlif istehsal sahələrində istifadəsindən gələcək gəlir ilə yanaşı bu təbii sərvətlər, region üçün yeni iş yerləri və investorlar da vəd edir.

İşğaldan azad olunan ərazilərdə, qoruq və yasaqlıqların bərpası da nəzərdə tutulur. Qoruq və yasaqlıqların bərpası, məhv edilən meşələrin yenidən salınmasıyla, regionun təbiətinin yenidən şahlanmasını qaçınılmaz edir. Bununla birlikdə, işğal dövründə dağıdılmış tarixi abidələrin və keçmiş xüsusi memarlığın bərpası, otellərin və kurort mərkəzlərinin inşası bölgəni, ölkənin əsas turizm mərkəzlərindən birinə çevirəcəkdir.

Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının üzərindən bir çox nəqliyyat dəhlizi və enerji boruları keçəcək, bu da regionu tranzit və coğrafi mühüm bir ərazi edəcəkdir.

İşğaldan azad olunan ərazilərdə  bərpaolunan və ekoloji təmiz yaşıl enerjidən istifadə də, bölgəni diqqət mərkəzində saxlayacaqdır. Həmçinin hal-hazırda imzalanmış və gələcəkdə imzalanmağı planlanan bir çox memorandum və müqavilələr ilə bölgədə açılacaq olan, araşdırma, istehsalat və investisya mərkəzləri, təhsil ocaqları, bölgənin gələcək önəmindən xəbər verən proseslərdən biridir.

# III FƏSİL. BÜDCƏ SİSTEMİNDƏ İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİN BƏRPASI ÜÇÜN NƏZƏRDƏ TUTULMUŞ VƏSAİTLƏRİN SƏMƏRƏLİ İDARƏ OLUNMASININ TƏKMİLLƏŞDİRİLMƏSİ YOLLARI.

## 3.1. Büdcə xərclərinin səmərəli istifadəsi metodlarının təkmilləşdirilməsi istiqamətləri.

Hər bir şirkət, dövlət və ya büdcəsi olan bir qurumun, büdcə planlaması etməsi vacibdir. Büdcə planlaması etməyən qurum, gəlirlər və xərcləri idarə edəbilməz. Büdcə planlaması etmək üçün büdcənin planlaşdırılması, büdcə sistemi və həmçinin büdcənin hazırlanması sistemini tam başa düşmək lazımdır ki, bunun vasitəsilə tək xərcləri proqnozlaşdırmaq yox həm də makro və mikroiqtisadi baxımdan konkret büdcə təkliflərinin məqsədəuyğunluğu barədə şərh vermək mümkündür.

Bütün iqtisadçılar, büdcənin planlaşdırılması və hazırlanmasını, büdcə qərarlarının hansı formada qəbul edildiyini, hazırlanma prosesindəki nöqsan və zəifliklərin hansılar olduğunu təsbit edə bilməli və onların həlli yollarını bilməlidir. Büdcə planlaşdırılması zamanı, bu proseslər haqqında məlumatlı olmaq və tətbiqini bacarmaq müsbət nəticə almaq ehtimalını artırar.

Büdcənin düzgün planlaşdırılması dövlət xərclərinin yaxşı idarə olunmasının əsasını təşkil edir. Büdcə xərclərinin effektiv idarə edilməsi üçün aşağıdakılara diqqət yetirmək lazımdır:

- Məcmu xərclərə nəzarət edərək sərfəliliyi təmin etmək
- Büdcənin səmərəli icrasını təmin etmək və pul vəsaitləri düzgün idarəetmək

Dövlət büdcəsinin formalaşması prosesində, büdcə prosesinin kompleks təhlili xərclərin istifadəsinin səmərəliliyinin öyrənilməsinə gətirib çıxardır. Dövlət büdcəsinin formalaşması prosesində aparılan kompleks təhlil ilə xarici və yerli təcrübələrin birləşdirilməsi dövlət büdcəsindən səmərəli istifadəyə mühüm töhfə verir. Praktikada yerli və xarici təcrübələrdən istifadə büdcə sisteminin hazırlanması və formalaşması prosesinin müasir standartlara uyğunlaşmasına kömək edir. Dövlət büdcəsinin

formalaşmasına kömək edən məsələlərin araşdırılması büdcənin formalaşması kimi zəruri proseslərin inkişafına təkan verir.

Büdcə mexanizminin öyrənilməsi, təkmilləşdirilməsi, büdcə xərclərinin səmərəliliyinin artırılması üçün aşağıdakı vəzifələr həll olunmalıdır:

- İctimai iştirakın təmin olunması
- Büdcə proseslərinin qarşılıqlı əlaqələrinin araşdırılması
- Şəffaflıq və düzgünlük prinsiplərinin qorunması
- Düzgün büdcə siyasətinin qurulması
- Büdcə formalaşdırılması zamanı istifadə edilmiş modellərin təhlili
- Büdcə prosesinin formalaşma mərhələlərinin təhlili
- Büdcənin hazırlanmasında istifadə edilən modellərin sistemləşdirilməsi
- İqtisadi təhlilin formalaşdırılması, onun prinsipləri və xüsusiyyətlərinin müəyyənləşdirilməsi.
- Büdcənin iqtisadi təhlili
- Büdcə mexanizmlərinin idarə olunması yollarınınn təhlili
- Büdcə xərclərinin idarə olunması yollarının təhlili
- Büdcə xərclərinin səmərəli idarə olunmasının təmin edilməsi

Son zamanlar dünyada baş verən iqtisadi böhranlar, büdcə xərclərinin səmərəli istifadəsinin əhəmiyyətini daha da artırmışdır. Lakin, böhranlardan az zərərlə çıxmaq üçün təkcə xərclərin səmərəli istifadəsi kifayət etmir. Büdcənin düzgün tərtibi və icrası da bu məsələdə önəmli yer tutur. Büdcə təsnifatı – büdcənin gəlir və xərclərinin sistemləşdirilməsidir. Büdcə təsnifatının da çox mühüm əhəmiyyəti vardır, belə ki, büdcələrin düzgün təşkil edilməsi, büdcə gəlirlərinin və xərclərinin zamanında, düzgün formada daxil olması və xaric edilməsini, dövlət orqanlarının maliyyə vəsaitlərinin təyinatı istifadəsini sadələşdirir. Məhz elə, bu sadalanan səbəblərə görə büdcə təsnifatının hüquqi və təşkilatı əhəmiyyətə malik olduğunu bildirmək olar.

Daimi olaraq dünya ölkələrinin iqtisadi rəqabətini görmək mümkündür. Ayrı-ayrı dövlətlərin resursları və maliyyə vəsaitləri bu rəqabətdə mühüm yer tutsa da, həmin maliyyə vəsaitləri və resurslardan səmərəli istifadə daha əhəmiyyətlidir. Bütün bunları nəzərə alsaq, büdcənin effektiv idarəolunmasında, səmərəlilik prinsipinin müstəsna rolunu görərik.

Dövlət büdcəsinin düzgün icrasını təmin etmək üçün ilk öncə dövlət büdcəsinin monitorinqi ardınca isə qiymətləndirilməsi aparılmalıdır. Büdcə prosesinin düzgün formalaşması və səmərəli idarəolunması üçün aşağıda göstərilən proseslərə nəzər yetirmək və lazımı yerlərdə tətbiq etmək lazımdır:

- Büdcə prosedurlarının hazırlanması və təkmilləşdirilməsi yolları
- Dövlətin maliyyə nəzarətinin təkmilləşdirilməsi istiqamətlərinin hazırlanması
- Büdcənin hazırlanma prosesində, tərəflər (məsələn: dövlət büdcəsi hazırlanan zaman, prosesdə iştirak edən nazirliklər) arasındakı informasiya mübadiləsinin yaradılması və keyfiyyətinin yaxşılaşdırılması.
- Maliyyə vəsaitlərinin səmərəliliyinin yüksəldilməsi.
- Uzunmüddətli büdcə planlaşdırılmasının təkmilləşdirilməsi yollarının müəyyən edilməsi.

Büdcə vəsaitlərinin səmərəli və düzgün istifadəsi metodikasının öyrənilməsi və həmçinin, həmin metodikanın təhlil ediləbilməsi üçün büdcə, onun mahiyyəti, funksiyaları, prinsipləri və fəaliyyət istiqamətləri haqqında ətraflı məlumata sahib olmaq lazımdır. Büdcə və büdcə prosesinin, müvafiq prinsiplər əsasında düzgün təşkil olunması və büdcə xərclərinin səmərəli idarə edilməsi üçün yuxarıda sadalanan sahələrdə biliyə sahib olmaq mütləqdir. İqtisadi bir anlayış kimi də büdcə geniş bir anlayışa malikdir. İqtisadi kateqoriyanın əsas hissələrindən biri olan büdcənin aşağıdakı funkisiyaları mövcuddur:

- İqtisadiyyatın dövlət vasitəsilə tənzimlənməsi
- Pul vəsaitləri fondlarının yaradılması

- Pul vəsaitləri fondlarına nəzarət
- Ölkənin sosial siyasətinin təmin edilməsi üçün lazım olan maliyyə təminatının göstəriilməsi

Büdcənin birinci və əsas funksiyası kimi göstərilən "bölüşdürücü" funksiyanın vəzifəsi, pul vəsaitlərinin yaradılması və səmərəli istifadəsidir. İqtisadiyyatı güclü inkişaf etmiş ölkələrdə ÜDM (aparılan tədqiqatlara əsasən 40 yaxud 50%-i) büdcə vasitəsilə bölüşdürülür və həmçinin, bu hadisə özündə büdcə gəlirlərinin yaradılması və səmərəli istifadə olunması proseslərini birləşdirir.

Büdcənin "nəzarət" funksiyası, büdcə xərclərinin səmərəli idarəolunması üçün əsas funksiyalardan biridir. Büdcənin nəzarət funksiyası, büdcəyə daxil olan və büdcədən çıxan vəsaitlər üzrə dövlət nəzarətini təmin edir.

Büdcədən maliyyələşdirmə vasitəsilə həyata keçirilən büdcə xərcləri müəyyən prinsiplərə əsaslanır. Büdcə xərclərinin maliyyələşdirilməsinin səmərəli təşkilində, büdcədən maliyyələşdirilmənin prinsiplərinin rolu böyükdür. Büdcədən maliyyələşdirilmənin prinsipləri aşağıdakılardır:

1. Mümkün olan ən az xərc ilə ən yüksək səmərə əldə etmək.
2. Büdcə vəsaitlərindən istifadənin məqsədli xarakteri.
3. Büdcə vəsaitinin qaytarılmamazlığı prinsipi.
4. Büdcə təxsisatının ödənişsizliyi prinsipi.

Büdcə maliyyələşdirilməsi zamanı bir neçə metoddan istifadə olunur. Həmin metodlar, müəyyən təcrübələr əsasında formalaşır. Məsələn, həmin təcrübələrdən biri olan, büdcə təxsisatında istifadə olunan metodlar aşağıdakılardır:

- Netto sistemi vaistəsilə büdcələrin maliyyələşmə metodu.
- Brutto büdcə sistemi üzrə maliyyələşdirmə metodu

Netto büdcə sistemi üzrə maliyyələşdirmə dedikdə, həmin dövr üçün hazırlanan büdcədən qəbul olunmuş müəyyən məqsədlər üçün ayrılmalar başa düşülür. Brutto metodunda isə büdcə vəsaitinin cari və s. kimi xərclərə ayrılmasıdır.

Ümumiyyətlə, müəssisələrin xərcləri və gəlirləri arasındakı fərq onların büdcəsindən ayrılan vəsaitlər hesabına formalaşır. Xərc smetasının növlərini bilmək və düzgün tətbiq etmək, büdcə kəsrinə qarşı effektiv üsullardan biridir. Həmin növlərə aşağıda qeyd olunan smetaları aid etmək mümkündür:

- Fərdi

Əsasən fərqli təşkilatlar üçün hazırlanır.

- Ümumi

Bu smeta eyni və ya oxşar müəssisələr üçün hazırlanır.

- Mərkəzləşdirilmiş

Müəyyən mərkəzləşdirilmiş tədbirlərin maliyyələşdirilməsi məqsədilə Baş idarələr və nazirliklər tərəfindən hazırlanır.

- İcmal

Bu smeta növü fərdi və mərkəzləşdirilmiş smetaları özündə birləşdirilir.

Yuxarıda sadalananlar əvvəlcədən müəyyənləşdirilmiş xərc normaları ilə reallaşdırılır. Həyata keçirilən bu proseslər, təşkilatların öz büdcələrinin planlaşdırılmaları zamanı istifadə edilir. Xərc normaları əsasən iki növ olur:

- Fakültativ
- Mütləq

Mütləq xərc dedikdə, əsasən, dövlət orqanları tərəfindən istifadə edilən normalar, fakültativ dedikdə isə baş idarələr və nazirliklər tərəfindən tətbiq olunan normalar nəzərdə tutulur. Büdcə normaları bir neçə fərqli xərclər üzrə qruplaşa bilər. Bunlara fərdi, birləşdirilmiş məcmu xərcləri aid etmək mümkündür. Bəzi amillərin yaratdığı situasiyalarda, büdcə normalarının dəyişilməsi prosesini müşahidə etmək mümkündür. Normaların dəyişməsinə bir çox misal gətirmək mümkündür ki, məsələn, qiymət və tarif sisteminin dəyişdirilməsi ilə normaların artması, əmək haqqlarının yüksəlməsi və s.

Dövlət gəlir və xərclərinin tarazlaşdırılması zamanı müəyyən proseslər təmin olunmalıdır. Həmin proseslərə nümunə kimi ilkin olaraq, büdcənin tərtib olunmasını göstərmək mümkündür. Büdcə tərtib olunduqdan sonra təsdiqi üçün hazırlanır və təsdiq edildikdən sonra icra prosesi başlayır.

Büdcə defisiti və büdcə profisiti, dövlət büdcəsi gəlirləri ilə xərcləri arasındakı tarazlığın pozulması ilə əmələ gəlir. Büdcə 2 cür: tarazlaşdırılmış və ya tarazlaşdırılmamış ola bilər. Büdcə tarazlaşdığı təqdirdə, gəlir və xərcləri bir-birinə bərabər olur. Tarazlaşdırılmamış büdcə isə 2 cür olur:

1. Büdcə profisiti
2. Büdcə defisiti

Büdcə profisiti də birinci və ikinci ( ilkin və ya sonraki ) olmaq üzrə fərqlənir. Büdcənin ilkin profisiti – gəlirlərin xərclərə, dövlət büdcəsinin borclarına olan xidmət məsrəfləri nəzərə alınmadan əmələ gələn artıqlığı nəzərdə tutulur. Büdcənin ikinci və ya sonraki profisiti dedikdə isə gəlirlərin, büdcə xərclərini dövlət borcuna xidmət xərcləri qeydə almaqla artıqlıq təşkil etməsi nəzərdə tutulur.

Azərbaycan Respublikasının investisiya yönümlü xərclərinin çəkisinin əhəmiyyətli dərəcədə böyük olmasının səbəbini aşağıdakı nümunələr əsasında izah etmək olar:

- İqtisadiyyatın davamlı inkişafı üçün lazımı mühitin yaradılması.
- Əlavə iş yerlərinin açılması.
- Yeni istehsal sahələrinin yaradılması.
- Büdcə gəlirlərinin səviyyəsində yüksəliş

Ölkəmizdə hər il dövlət dəstəyi ilə büdcədən iqtisadiyyatın, istehsalın inkişafına və kiçik-orta sahibkarlara dəstək məqsədilə ayırmalar olur. Büdcədən edilən bu ayırmalar və yardımlara səbəb kimi bir neçə amili misal göstərmək mümkündür. Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdikdən sonra kapitala vəsait qoyuluşu, ÜDM həcmində azalmalar olmuşdur. Belə olduğu təqdirdə iqtisadiyyatın

zəifləməsinin dayandırmaq və sabitləşdirmək səbəbilə büdcədən müəyyən vəsait ayırmalarına ehtiyac duyulurdu.

Ümumiyyətlə, iqtisadiyyatda bir çox vəziyyətdə islahatların aparılmasına ehtiyac duyulur. Həmin bu iqtisadi vəziyyətlərin yaranmasına bir çox amil təsir göstərir. Həmin amillərə nümunə kimi, mövcud iqtisadi vəziyyətin təsiri ilə dövlət əmlaklarının özəlləşdirilməsi, kiçik və orta müəssisələrin birləşdirilməsi və yaxud ləğv olunması kimi səbəbləri göstərmək olar. Lakin, müvafiq və yararlı islahatlar nəticəsində, yuxarıda sadalanan proseslərin qarşısına keçməklə yanaşı mövcud iqtisadi vəziyyəti yaxşılaşdırmaq, yeni müəssisə və təşkilatların yaranmasına təkan vermək kimi müsbət nəticələr əldə etmək mümkündür.

Büdcə sistemi, dövlətin idarəetmə funksiyalarının reallaşdırılması üçün şərait yaradır. Dövlət büdcəsinin sistemini onun vəzifələri, öhdəlikləri və funksiyaları yaradır.

Büdcə xərclərinin səmərəliliyini artırmaq büdcə xərclərini optimallaşdırmaq, büdcədən ayrılan vəsaitlər ilə gələcəkdə səmərə əldə etmək üçün atılan mühüm addımlardan biridir. Belə ki, büdcə prosesində dəyişikliklərin həyata keçirilməsi ilk növbədə büdcə xərclərinin səmərəliliyinin artırılması ilə bağlıdır. Bu növ dəyişikliklərin bir çox əsas istiqamətini müəyyənləşdirmək olar ki, onlar xüsusi əhəmiyyət kəsb edir və demək olar ki, bütün büdcə sektorlarında onların çərçivəsində fəaliyyətin həyata keçirilməsi zərurəti yaranır.

Birinci istiqamətə nümunə kimi, regional səviyyədə dövlət orqanlarının, yerli özünüidarəetmə orqanlarının üzərinə götürdüyü öhdəliklərin tam maliyyələşdirilməsini təmin edən tədbirlər kompleksini əhatə edir. Bu baxımdan büdcə öhdəliklərinin inventarlaşdırılması, xüsusən də sosial sahədə sistemli iş tələb olunur. Belə bir inventarlaşdırmanın nəticəsi maliyyələşdirilməsi iqtisadiyyatın və sosial sferanın dayanıqlı artımına töhfə verməyən, əksinə, büdcə sisteminin üzərinə yük qoyan həmin normativ hüquqi aktların ləğvi ilə bağlı təkliflərin hazırlanması olmalıdır.

İkinci istiqamət büdcənin planlaşdırılması və icrasında proqram-məqsəd prinsipinin tətbiqini nəzərdə tutur. Bu istiqamət çərçivəsində kəskin sosial-iqtisadi

problemlərin həllinə yönəlmiş idarələrarası proqramlar üçün büdcə vəsaitlərinin bölüşdürülməsi sisteminin işlənib hazırlanması və həyata keçirilməsi zəruridir. Eyni zamanda, sənaye lobbiçiliyinin əhatə dairəsini istisna etmək üçün büdcə maliyyələşdirmə proqramlarının seçilməsi üçün ciddi rəqabət prinsiplərinin müəyyən edilməsi, dövlət orqanlarının və onların əməkdaşlarının institusional və fərdi müqavilə sistemini tətbiq etmək, habelə fəaliyyətin qiymətləndirilməsi sistemini yaratmaq lazımdır. proqramların effektivliyi. Bu baxımdan müstəsna əhəmiyyət kəsb edən ortamüddətli planlaşdırmanın prioritetidir ki, bu da gələcəkdə onların az maliyyələşdirilməsinin qarşısını almaq üçün proqramların maliyyə mənbələrini və həcmini bir neçə il ərzində müəyyən etməyə imkan verəcəkdir.

Üçüncü istiqamət dövlət və bələdiyyə ehtiyacları üçün satınalma üsullarının təkmilləşdirilməsidir. Dövlət və bələdiyyə ehtiyacları üçün satınalmaların və müqavilələrin maliyyələşdirilməsini müsabiqə əsasına keçirmək və eyni zamanda belə müsabiqələr çərçivəsində ədalətli rəqabət üçün lazımi şərait yaratmaq lazımdır.

Ən mühüm istiqamətlərdən biri dövlət və bələdiyyə unitar, dövlət müəssisələri və büdcə müəssisələri sistemində islahatların aparılmasıdır. Belə bir islahatın mənası dövlət sektorunu azaltmaqla yanaşı, onun səmərəliliyini artırmaqdır. Dövlət sektorunun ixtisarı büdcə təşkilatlarının bir hissəsinin onların maliyyələşdirilməsinin büdcə komponentinin tədricən azaldılması şəraitində könüllülük əsasında özəl sektora keçməsi hesabına baş verməlidir. Bu, ilk növbədə sosial sferanın sektorlarına, xüsusən də səhiyyə və təhsilə aiddir. Bu cür təşkilatlar büdcə vəsaitlərinin bölüşdürülməsində müsabiqə əsasında iştirak edir və öhdəliklərinə görə tam məsuliyyət daşıyırlar. Qalan büdcə təşkilatları hər hansı maliyyə müstəqilliyini itirir və ciddi şəkildə müəyyən edilmiş büdcə əsasında büdcədən maliyyələşir.

Büdcə prosesində islahatların beşinci istiqaməti hesabatlılığın təkmilləşdirilməsidir. Bu istiqamət çərçivəsində büdcə vəsaitləri ilə aparılan əməliyyatların şəffaflığının artırılması məqsədilə dövlət və bələdiyyə əməliyyatlarının

büdcə və büdcədənkənar vəsaitlərlə tam əhatə olunmasının yaradılması, habelə büdcə təsnifatının təkmilləşdirilməsi nəzərdə tutulur.

Altıncı istiqamətə ayırmaların müəyyən edilməsi üçün obyektiv meyarların müəyyən edilməsi üzrə tədbirlər daxildir. Sosial qurumlar şəbəkəsinin saxlanılması standartlarından dövlət və bələdiyyə xidmətlərinin göstərilməsi üçün tələb olunan minimum maliyyələşdirmə standartlarına, gələcəkdə isə büdcə xərclərinin digər növləri üzrə standartlara keçid tələb olunur. Belə bir standartlar sisteminin səmərəliliyinin ən vacib şərtləri, dövlət və bələdiyyə xidmətlərinin ödənilməsi bu xidmətləri alanların sayına uyğun olaraq baş verdikdə, standartların birgə maliyyələşdirilməsinin payını təyin edən adambaşına maliyyələşdirmə prinsipidir. müxtəlif səviyyəli büdcələrdən vətəndaşların müəyyən edilməsi, xidmətlərin göstərilməsi pulsuz və ehtiyac meyarları əsasında həyata keçirilməli və nəhayət, kifayət qədər maliyyə səviyyəsi ilə standartların təmin edilməsi.

Yeddinci istiqamət xəzinədarlığın icrası və büdcə vəsaitlərinin xərclənməsinə nəzarət mexanizmlərinin təkmilləşdirilməsi və onların subfederal səviyyəyə bölünməsidir.

Əsas xərc istiqamətləri üzrə büdcə siyasətinin əsas məqsədlərini müəyyən etmək mümkündür.

Dövlət və bələdiyyə idarəetməsi sahəsində - müəyyən kəmiyyət göstəricilərinin əldə edilməsinə yönəldilmiş məqsədli göstəricilər əsasında müvafiq vəsaitlərin planlaşdırılmasına və istifadəsinə keçid yolu ilə büdcə vəsaitlərinin səmərəli xərclənməsi.

Büdcə xərclərinin səmərəli istifadəsi metodlarının təkmilləşdirilməsi istiqamətlərini müəyyən edəbilmək üçün ilk öncə büdcənin və büdcə xərclərinin nə olduğunu öyrənmək, daha sonra isə büdcə xərclərinin səmərəli istifadəsi metodları haqqında məlumatlara sahib olmaq lazımdır. Büdcə xərclərinin səmərəli istifadəsinin metodlarını təkmilləşdirmək, büdcə xərclərinin azalmasına, bəzi əsas və məcburi xərclərin daha səmərəli və effektiv idarəolunmasına və hazırki dövrdə istifadə olunan

xərclərin gələcəkdə səmərə gətirəbilməsinə səbəb ola bilər. Elə məhz, bu səbəbə görə də, büdcə xərclərinin səmərəli istifadəsi metodlarının öyrənilməsi və bu metodların təkmilləşdirilməsi və real praktikada tətbiqi vacibdir.

### 3.2. Qarabağın bərpası üçün nəzərdə tutulmuş büdcə vəsaitlərinin optimallaşdırılması və idarə olunması problemləri.

Heç şübhəsiz ki, işğaldan azad olunmuş ərazilərimiz, bütün dünya üçün nümunəvi, müasir standartlara cavab verən, inkişaf etmiş ərazilər olacaqdır. Lakin, daha əvvəl də qeyd etdiyimiz kimi, hal-hazırda da davam edən, minadan təmizləmə və yenidənqurma işləri başa çatmalıdır. Bu proses uzun və xərc tələb edən bir prosesdir, lakin, işlərin görülməsi üçün həm də çoxlu sayda işçi qüvvəsi və xammal da lazımdır.

Ümumiyyətlə, dünya praktikasında post-konflikt dövrdə, dövlətlər öz ərazi və iqtisadiyyatlarını bərpa edəbilmək üçün xüsusi strategiyalar hazırlayırlar. Hazırlanmış bu strategiyaların əsas məqsədi ərazilərin bərpası, güclü iqtisadi inkişafa nail olmaq və iqtisadi-sosial sahədə əldə edilən yeni naliyyətləri qoruyub saxlamaqdır. Yaxın tarixdə konflikt yaşamış bir çox ölkənin, post-konflikt dövründə iqtisadi və sosial baxımdan müəyyən problemlər ilə üzləşdiyi danılmaz faktdır. Yeni konfliktdən çıxan ölkələrin bəzilərində, yüksək inflyasiya, işsizlik, yüksək həddə dövlət borclanması, sosial-iqtisadi vəziyyətin pisləşməsi, yoxsulluq və s. kimi problemlərə rast gəlmək mümkündür.

Yaxın tarixdə, post-konflikt dövründən keçmiş ölkələrin təcrübələrinə nəzər yetirsək, onların iqtisadi sabitliklərini təmin etmək üçün yeni iqtisadi strategiya qəbul etdiklərini görərik. Qəbul edilmiş yeni iqtisadi strategiyalar özündə aşağıdakı tələbləri birləşdirməlidir:

- Davamlı və planlı formada iqtisadi islahatlar həyata keçirilməlidir.
- İqtisadi inkişafa dəstək olacaq investisyalar edilməli və həmçinin dövlət kimi özəl sektorları da bu investisyalara cəlb edilməlidir.

- Zərər görmüş ərazilərdə bərpanın optimal maliyyələşdirilməsi üçün düzgün fiskal siyssət qurulmalıdır.
- Beynəlxalq yardım, qrant və s. tipli vəsaitlərin idarəsində səmərəlilik prinsipi qorunmalıdır.

Torpaqlarımız işğaldan azad edildikdən sonra dövlət büdcəsindən, işğaldan azad edilmiş ərazilərimizin bərpası üçün vəsait ayrılır. Maliyyə naziri Samir Şərifovun parlamentin plenar iclasında çıxışı zamanı "2022-ci ilin dövlət büdcəsi 30 il əvvəl müstəqilliyini bərpa etmiş ölkəmizin müstəqillik tarixində ən böyük büdcədir və növbəti il üçün proqnozlaşdırılan Ümumi Daxili Məhsulun (ÜDM) 34,5 faizinə bərabərdir" ifadələrini işlətmişdir. Maliyyə naziri Samir Şərifovun sözlərinə görə, 2022-ci il üçündə büdcənin prioritet xərclərində işğaldan azad edilmiş ərazilərin yenidən qurulması əsas məsələ olaraq qalır. Onun sözlərinə görə indiki mühum məsələ kimi düşmənin amansızca dağıtdığı şəhər, rayon, kənd və qəsəbələrin tarixi memarlıqlarına uyğun bərpası və həmçinin, bəzi həyati əhəmiyyətə malik olan yol, qaz, elektrik və su kimi kommunikasiyya xəttlərinin çəkilməsi, əsas infrastrukturların yenidən qurulması prosesi qarşıya qoyulmuş və başladılmışdır. Lakin, bütün bu ilkin addımları atmaq üçün əlbəttə ki, ilk öncə, həmin torpaqların partlayıcı silah-sursat və minalardan təmizlənməsi lazımdır. Bütün bu proseslərlə bərabər tarixi abidələrimizin bərpası prosesi də tam sürətlə davam edir. Tarixi abidələrimizin öz qədimiliyi və nadirliyini qoruyaraq bərpası böyük həcmli iş olduğu aydındır. Həmçinin, müvafiq ilin büdcəsindən, bərpa işləri üçün 2.2 milyard manat maliyyə vəsaitinin ayrılması nəzərdə tutulur.

İşğaldan azad olunan torpaqlarımızda müvafiq hərbi hissələrin yerləşdirilmə prosesi, dövlətimizin milli təhlükəsizlik səviyyəsinin yüksəldilməsi, ordumuzun müdafiə qabiliyyətinin daha da gücləndirilməsi, işğaldan azad olunmuş torpaqlarımızın bərpa edilən dövlət sərhədlərinin sərhədçilərimiz tərəfindən qorunma səviyyəsinin daha da yaxşılaşdırılması üçün nəzərdə tutuluna büdcə ayırmalarının 15% və ya 4 milyard 490 milyon manat vəsaitin ayrılmasının nəzərdə tutulduğunu da vurğulayıb.

Son olaraq, Maliyyə naziri Samir Şərifov öz çıxışında qeyd etmişdir ki, dövlət büdcəmizin xərclərinin, 2022-ci il üzrə 29 milyard 879 milyon manat olması təklif olunub.

Həmçinin, Azərbaycan Respublikası Maliyyə naziri öz çıxışında, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının Azərbaycan iqtisadiyyatına reinteqrasiya edilməsi üçün 2.2 milyard manat məbləğində vəsaitin ayrılması bildirib. Daha sonra çıxışında regiondakı geosiyasi vəziyyətə toxunaraq, ölkəmizin hərbi qüvvələrinin müvafiq bölgələrdə yerləşdirilməsi, lazımı infrastrukturların yaradılması üçün ehtiyac olan pul vəsaitlərinin ayrılmasının nəzərdə tutulduğunu bildirib.

İşğaldan azad olunmuş ərazilərin bərpası üçün nəzərdə tutulmuş büdcə vəsaitlərinin optimallaşdırılması və səmərəli idarə olunması üçün ilk növbədə hazırlanmış inkişaf strategiyasına uyğun idarəetmə, monitorinq, maliyyələşmə mexanizmi kimi əsas tədbirlər həyata keçirilməlidir. Bilindiyi və daha əvvəl də vurğuladığımız kimi Şuşa, Füzuli kimi işğaldan azad olunan şəhərlərimizin baş planı hazırlanmış və həmçinin tikintisi başa çatmış Zəngilanın ilk ağıllı kəndi olan Ağalı kənd kimi işğaldan azad olunan digər ərazilərimizin, habelə, şəhərlər, kəndlər və qəsəbələrin yeni planları hazırlanmalıdır. Həmçinin, qoyulan xərclərin səmərə gətirəbilməsi və həmin ərazilərin güclü iqtisadiyyata malik olması üçün büdcədən ayrılan vəsaitlərlə, ilk öncə yol, elektrik, qaz, su, kanalizasiya və s. insan yaşayışı üçün əhəmiyyətli infrastruktur və nəqliyyat-rabitə sistemləri quraşdırılmalıdır. İşğaldan azad olunan ərazilərin bərpası üçün ayrılan büdcə vəsaitlərinin gələcəkdə səmərə gətirməsi üçün həm də həmin ərazilərin, sosial infrastrukturu da (təhsil, səhiyyə və s. kimi dövlət müəssisələri) yüksək səviyyədə olmalı və özünüməşğulluğun da təmin olunması əsas məsələlərdən biri kimi qarşıya qoyulmalıdır. Beləliklə, işğaldan azad olunan ərazilərə ayrılan vəsaitlər ilə xarici və yerli sərmayələrin cəlbi, ağıllı kənd-şəhər layihələrinin yaradılması, kiçik,orta və böyük bizneslərin yaradılması və inkişafına təkan verilməsi ilə birlikdə həmin ərazilərin gələcəkdə böyük iqtisadi səmərə gətirməsi ilə yanaşı həm də insan kapitalının inkişafına da dəstək olacağı şübhəsizdir.

Daha əvvəl də vurğuladığımız kimi işğaldan azad edilmiş ərazilərimizdə yenidənqurma işləri üçün sadəcə büdcədən ayrılna maliyyə vəsaitlərindən deyil həm də kredit təşkilatları tərəfindən ayrılan vəsaitlər və s. kimi amillərdən istifadə mümkündür. Ümumiyyətlə həm büdcə vəsaitlərindən həm də mümkün olan qrant, kredit, investisya və s. vaistələrdən qanunvericiliyin tələblərinə uyğun istifadə edilməlidir. Əsasən dost ölkələr başda olmaq üzrə xarici təşkilatlar, dövlətlər, sahibkarlar işğaldan azad olunmuş ərazilərimizə investisya qoymağa maraq göstərir. Beynəlxalq təcrübədə mövcud olan və tarixdə də sınaqdan keçmiş bir metod kimi diaspor investisyasından da dağıdılan torpaqlarımızın bərpası prosesində istifadə etmək mümkündür.

İşğaldan azad olunmuş ərazilərimizdə iqtisadiyyatın sürətli inkişafını təmin etmək üçün vençur maliyyələşdirilməsi metodundan istifadə mümkündür. Vençur maliyyələşdirilməsi XX əsrin ortalarında ABŞ-da yaranmışdır. Vençur kapital elə bir investisya vəsaitidir ki, burada innovasiya kompaniyalarının inkişafından mənfəət əldə etmək nəzərdə tutulur. Bu model ABŞ-da yarandıqdan qısa bir müddət sonra dünyada geniş yayıldı və əsasən Yaponiya, Tayvan kimi ölkələrdə özünü doğrultdu.

Özəl sahənin investisyaları da bölgənin inkişafı və güclü iqtisadiyyatının qurulmasında əhəmiyyətli amildir. Belə ki, özəl sahələrin investisyaları ilə büdcə xərclərinin azalması, bölgədə iqtisadiyyatın daha sürətli inkişaf etməsi kimi əhəmiyyətli sahələrdə səmərə əldə etmək mümkündür.

İşğaldan azad olunmuş ərazilərimizin bərpası üçün nəzərdə tutulmuş büdcə vəsaitlərinin optimallaşdırılması və idarə olunmasının mümkün problemlərinə qarşı aşağıdakı tədbirləri görmək mümkündür:

1. Büdcədən ayrılan vəsaitlərin əlavə monitorinqlərə cəlb edilməsi.
2. İşğaldan azad edilmiş torpaqlarımızın yenidənqurma işləri üçün ayrılan vəsaitlərin səmərəli istifadəsi metodlarının təkmilləşdirilməsi.
3. Büdcədən ayrılan vəsaitlərin idarə edilməsi istiqamətlərinin hazırlanması və bu istiqamətlərin təkmilləşdirilməsi.

4. Keçmiş beynəlxalq təcrübələrdən istifadə edib, həmin təcrübələrin müasir dövrə uyğunlaşdırılması.

5. Tarixdə baş vermiş müharibələrdən sonraki post-konflikt təcrübələrin öyrənilib, tətbiq metodlarının inkişaf etdirilməsi.

İşğaldan azad edilmiş ərazilərin bərpa prosesi üçün əlbəttə ki, vəsaitlərin böyük hissəsi dövlət büdcəsindən ayrılır. Belə olduğu halda, büdcədən ayrılan vəsaitlərin istifadə olunmasının səmərəliliyi, monitorinqi, optimallaşdırılması və ümumiləşdirsək, idarə olunması problemləri ilə üzləşirik. İlk növbədə, yuxarıda da vurğuladığımız kimi ayrılan vəsaitlərdən səmərəli istifadə edərək, gələcəkdə həmin ərazilərdən yüksək gəlir əldə etmək lazımdır. Bunun üçün işğaldan azad olunan ərazilərdə vacib infrastrukturlar, əhali üçün özünüməşğulluq, böyük iş imkanları və həmin ərazilərin öz təbii ehtiyyatlarına, potensialına uyğun investisyalar etmək lazımdır. Büdcədən ayrılan vəsaitlərin effektiv idarə edilməsi və daha da optimallaşdırılması üçün beynəlxalq standartlarda monitorinqlər tətbiq etmək mümkündür. İşğaldan azad olunan ərazilərimizdə bərpa prosesinə və investisya qoyuluşuna özəl sektorun da, yetəri qədər böyük marağı vardır. Belə ki, Azərbaycan Respublikası Prezidenti İlham Əliyev, öz çıxışlarında, özəl sektorun işğaldan azad olunmuş ərazilərə investisya qoymaq marağından danışmış və hətta buraya qoyulacaq investisyaların gələcəkdə böyük səmərə gəticəyini vurğulayaraq, özəl şirkətləri bura investisya qoymağa çağırıb. İşğaldan azad olunan torpaqlarımız böyük bir ərazini əhatə edir və həmin ərazilərin təmizlənməsi və bərpa olunması vaxt baxımından uzun, vəsait baxımından isə böyük xərc tələb edən prosesdir. Elə məhz bu səbəbə görə də, büdcədən ayrılan vəsaitlərin səmərəli və məqsədəuyğun idarə edilməsi əsas məsələlərdən biridir. Belə ki, ilk öncə bölgənin partlayıcı silah-silah-sursatlardan təmizlənməsi, həyati-vacib infrastruktrun yaradılması və s. kimi əsas məsələlər həll olunmalıdır.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan xalqının birinci prioriteti işğal olunmuş torpaqlarını azad etmək olmuşdur. 44 günlük müharibə bitdikdən və torpaqlarımız azad etdikdən sonra qarşıda duran əsas məsələ düşmən tərəfindən dağıdılıb, talan edilmiş və təhlükəli, partlayıcı silah-sursat və minalar basdırılmış torpaqlarımızın təmizlənməsi və bərpa edilməsi olmuşdur. İşğaldan azad olunan ərazilərimiz Azərbaycan Respublikasının torpaqlarının 20%ni əhatə edir ki, bu da həmin ərazilərin nə qədər böyük olduğunun sübutudur. İşğaldan azad olunan ərazilərin bərpa prosesi uzun müddət çəkəcək və böyük xərc tələb edəcək bir prosesdir. Bu prosesi sürətləndirmək, keyfiyyətini yüksəltmək və xərclərini optimallaşdırmaq üçün büdcədən bu məqsədlə ayrılan vəsaitləri düzgün idarəetmək, beynəlxalq təcrübədən istifadə etmək lazımdır. Büdcədən ayrılan vəsaitləri düzgün idarə etmək üçün ilk öncə büdcə, büdcə sistemi, onun quruluşu və mahiyyətini dərk etmək lazımdır ki, büdcənin iqtisadi rolu və əhəmiyyəti daha aydın izah olunsun. Büdcə vəsaitlərinin düzgün idarəolunması tək bu məsələdə yox, həmçinin, güclü iqtisadiyyata sahib olmaq, büdcəyə daxil olan gəlirlər və büdcədən çıxan xərcləri səmərəli idarə etmək üçün də vacib bir məsələdir.

İşğaldan azad olunmuş ərazilərin bərpası prosesində təkcə xərclərin idarəolunması deyil, həmçinin, həmin ərazilərin öz tarixi memarlıqlarına uyğun və müasir texnologiyalar ilə bərpa etmək lazımdır. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sərəncamı ilə işğaldan azad olunmuş ərazilərimizdə Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonları yaradıldı. İşğaldan azad edilmiş bölgələrdə yeni iqtisadi rayonların yaradılmasının əhəmiyyəti və gələcəkdə gətirəcəyi iqtisadi səmərənin düzgün qiymətləndirilməsi də bərpa və quruculuq prosesinin əsasını təşkil edən amillərdən biridir. Belə ki, işğaldan azad edilmiş ərazilərdə yeni iqtisadi rayonların yaradılması bərpa işlərinin sürətlənməsi, iqtisadi səmərənin artması, bir-birinə tarixi və coğrafi yaxın olan rayonların bir iqtisadi rayonda birləşməsi kimi bir çox amili özündə

birləşdirir. Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının potensialları ayrı – ayrılıqda öyrənilərək, öz potensiallarına uyğun olan sahədə inkişaf etdirilməldirlər. Məsələn, işğaldan azad edilmiş ərazilərimizi də əhatə edən, yeni iqtisadi rayonların tərkibində olan rayonların təbii sərvətləri, bitki örtüyü və torpaq relyefi, turizm potensialı kimi sahələri dərindən öyrənilməli və sərmayelər bu istiqamətdə qoyulmalıdır.

İşğaldan azad olunan ərazilərimizdə bərpaolunan yaşıl enerjidən istifadə edilməsi həm gələcək dövrün xərclərinin azaldılmasına həm də həmin əraziləri ekoloji təmiz ərazilər olmasına kömək edəcək.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının turizm potensialı çox yüksəkdir. Belə ki, doğru investisyalar edərək, həmin ərazilərdə çoxşaxəli turizm inkişaf etdirmək mümkündür. Türkiyə, Yunanıstan, İtaliya kimi turizmi inkişaf edən ölkələr hər il bu sahədən böyük gəlir əldə edir. Daha əvvəl də vurğuladığım kimi işğaldan azad olunan torpaqlarımız böyük bir ərazini əhatə edir və bu ərazilərin fərqli relyefi var. Belə olan halda, həmin ərazilərdə, dağ turizmi, qış idman növləri və oyunları üçün zonalar, çoxlu müalicə kompleksləri və sanatoriyalar, bir sözlə turizmi inkişaf etdirəbiləcək əksər investisyalar yaratmaq mümkündür.

Büdcə xərclərinin optimallaşdırılması və düzgün idarə edilməsi də işğaldan azad edilmiş ərazilərin bərpası prosesində əsas məsələlərdən biridir. Belə ki, büdcədən ayrılan vəsaitlərin optimallaşdırılması üçün səmərəli istifadə olunması, monitorinqlərin qurulması və s. kimi tədbirlər lazımdır. Həmçinin, büdcə xərclərinin səmərəli istifadə olunması metodlarını öyrənmək və təkmilləşdirmək, büdcə xərclərinin azalmasına, xərclərin effektiv idarə edilməsinə və s. kimi müsbət nəticələrə gətirib çıxara bilər. Yuxarıda göstərilən səbəblərə görə büdcə xərclərinin optimallaşdırılması və səmərəli idarə edilməsi metodlarını öyrənmək, təkmilləşdirmək və praktikada istifadə etmək faydalı nəticələr əldə edilməsinə gətirib çıxara bilər.

Ümumiləşdirsək, tədqiqat işinin nəticələri kimi aşağıdakıları nümunə göstərmək mümkündür:

- İşğaldan azad edilmiş ərazilərin bərpa prosesində büdcədən səmərəli istifadənin əhəmiyyəti
- Büdcə xərclərinin idarə olunması metodları və optimallaşdırılmasının əhəmiyyəti
- İşğaldan azad olunmuş ərazilərin bərpa prosesi fonunda yeni iqtisadi rayonların yaradılmasının əhəmiyyəti
- İşğaldan azad olunmuş əraziləri əhatə edən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının iqtisadi potensialı və gələcəkdə gətirəbiləcəyi iqtisadi səmərə

Nəticələr ilə yanaşı yuxarıda sadalanan təklifləri də ümumiləşdirsək, aşağıdakı nəticəni əldə etmək olar:

- İşğaldan azad olunmuş ərazilərdə yerləşən hər bir rayonun gətirəcəyi iqtisadi səmərənin əvvəlcədən və dəqiq araşdıraraq, həmin sahəyə investisya yatırılması
- Büdcədən ayrılan vəsaitlərin optimallaşdırılması metodlarının təkmilləşdirilməsi istiqamətləri
- İşğaldan azad olunmuş ərazilərin bərpası üçün büdcədən ayrılan vəsaitlərin daha effektiv idarə edilməsi metodlarının öyrənilməsi

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

### Azərbaycan dilində

1. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı- 12 noyabr 1995
2. Azərbaycan Respublikası Vergi Məcəlləsi
3. Azərbaycan Respublikası 2021-ci il dövlət büdcəsi haqqında Azərbaycan Respublikasının Qanunu.
4. Büdcə sistemi haqqında qanun
5. Cəbrayıl şəhər mərkəzi xəstəxanasının layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 4 oktyabr 2021-ci il tarixli Sərəncamı.
6. İşğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələri haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı.
7. Şərqi Zəngəzur iqtisadi rayonunda “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkını yaradılması.
8. Bədəlov Ş.Ş., Məhərrəmov R.B., Qurbanov F.Ə. Büdcə sistemi (Dərslik), Bakı 2003
9. Xankişiyev. B.A – Büdcə prosesi və büdcə təsnifatı, Bakı-2002
10. Xalq Qazeti No 134 (29676) 1 iyul 2021-ci il, cümə axşamı buraxılışı.
11. Novruzov N, Hüseynov X. (2007) “Maliyyə” dərslik Bakı.
12. Novruzov N, İbrahimov.E – “ Büdcə sistemi ” (dərslik), Bakı-2012

### İngilis dilində

1. Budgeting methodologies, Avqust 24, 2012 https://rsmus.com/our-insights/newsletters/eclubnews/budgeting- methodologies.html
2. Budgeting Systems and Their Applicability in Public Sector, January https://www.researchgate.net/publication/228300855_Budgeting_Systems_and_Their_Applicability_in_Public_Sector

## Internet resursları


1. https://www.economy.gov.az/
2. http://www.maliyye.gov.az/
3. https://www.taxes.gov.az/az
4. https://president.az/articles/50474
5. https://sai.gov.az/
6. https://president.az/articles/52389
7. https://president.az/articles/50531
8. https://president.az/articles/49859
9. https://president.az/articles/49820
10. https://president.az/articles/47740
11. https://unec.edu.az/application/uploads/2015/12/165_budca.pdf
12. https://president.az/articles/50258
13. https://qdf.gov.az/
14. https://president.az/articles/50927
15. https://president.az/articles/52623
16. https://president.az/articles/52219
17. https://president.az/articles/51417
18. https://president.az/articles/51416
19. https://president.az/articles/51394
20. http://unec.edu.az/application/uploads/2018/11/lizad-El-n-Dissertasiya.pdf
21. Maliyyə naziri: “Qarabağın bərpası üçün 2,2 milyard manat ayrılacaq” - FED.az
22. "Qarabağ Azərbaycanda iqtisadi artımın yeni drayveri olacaq" - Vüsal Qasımlı (milli.az)
23. İşğaldan azad olunan ərazilərimizdə kənd təsərrüfatı sahəsinin bərpası istiqamətləri və istehsal göstəricilərinin proqnozlaşdırılması | Kənd təsərrifatı iqtisadiyyatı (agroeconomics.az)

24. Qarabağın bərpası və inkişafı prosesində xarici dəstək mühüm amildir (science.gov.az)

25. https://science.gov.az/az/news/open/16136

26. http://ikisahil.com/post/242069-qarabagin-iqtisadi-potensiali-ve-inkishaf-perspektivleri

## Cədvəllərin siyahısı

**Cədvəl 1:** Büdcə xərclərinin faizlə bölgüsü....................................................**Ошибка! Закладка не определена.**6
**Cədvəl 2:** Şərqi Zəngəzur iqtisadi rayonun göstəriciləri..................................46
**Cədvəl 3:** Qarabağ iqtisadi rayonun göstəriciləri.............................................46

## Diaqramların siyahısı

**Diaqram 1:** 2022 büdcə xərclərinin faizlə bölgüsü.........................................**Ошибка! Закладка не определена.**
**Diaqram 2:** İşğaldan əvvəlki dövrdə kənd təsərrüfatı göstəriciləri.................**Ошибка! Закладка не определена.**
**Diaqram 3:** İşğaldan əvvəlki dövrdə torpaqlarımızın istehsal potensialı........49